**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SİYASİ DEMOKRATİYANIN FORMALAŞMASI PROSESİNDƏ CƏMİYYƏTİN SİYASİ MODERNLƏŞMƏSİ

İxtisas: 5904.01 – "Siyasi institutlar və sistemlər"

Elm sahəsi: Siyasi elmlər

İddiaçı: **Elnur Bəybala oğlu Hacalıyev**

Elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı-2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun “Beynəlxalq münasibətlər və beynəlxalq hüquq” şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** Fəlsəfə elmləri doktoru,professor
**İlham Ramiz oğlu Məmmədzadə**

**Rəsmi opponentlər:** Siyasi elmlər doktoru, professor
**Elçin İldırım oğlu Əhmədov**

Siyasi elmlər doktoru, professor
**Vəsilə Cümşüd qızı Hacıyeva**

Siyasi elmlər doktoru, professor
**Elşad Mirbəşir oğlu**

Siyasi elmlər doktoru, dosent
**İradə Tofiq qızı Nuriyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BED 2.30/1 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: Akademik
____________________ **Urxan Kazım oğlu Ələkbərov**

Dissertasiya şurasının elmi katibi: Siyasi elmlər doktoru, dosent
____________________ **Sevda Ağamirzə qızı Əliyeva**

Elmi seminarın sədri: Siyasi elmlər doktoru, dosent
____________________ **Sevil İmamverdi qızı Məmmədova**

# GİRİŞ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Demokratiya dövlətin və cəmiyyətin siyasi təşkili forması olmaqla, xalqı hakimiyyətin mənbəyi kimi təsdiqləməyə və vətəndaşların hüquq və azadlıqlarının geniş dairəsini təmin etməyə yönələn bütöv ictimai hadisədir, siyasi-hüquqi dəyərlər sistemidir.

Siyasi inkişafın alternativ yollarının axtarışı müasir siyasi elmin ən əhəmiyyətli vəzifələrindən biridir. Bu mənada hazırda yalnız və sadəcə olaraq ümumi demokratiya probleminə aid konkret hadisələri öyrənmək məqsədəuyğun deyildir. Çünki bu məsələ mövcud fəlsəfi və siyasi elmə aid ədəbiyyatda geniş açıqlanmışdır. Siyasi problemlər sistemində tədqiqi xüsusi zərurət kəsb edən məsələlərdən biri məhz siyasi demokratikləşmə və bu prosesdə cəmiyyətin siyasi modernləşməsinin mahiyyətini, məzmununu, xüsusiyyətlərini, istiqamətlərini və modellərini araşdırıb təhlil etməkdən ibarətdir.

Siyasi demokratikləşmə prosesində cəmiyyətin siyasi modernləşməsi probleminə dair bütün təsəvvürlərin inkişafı prosesi nəticə etibarilə, onların qarşılıqlı əlaqəsinin ümumi təbiətini yeni mövqedən təhlil etməyi şərtləndirir.

"Ümumi demokratiya" anlayışından çıxış edərək siyasi demokratiyanın öyrənilməsinin aktuallığını belə bir məqamla əsaslandırmaq olar ki, siyasi demokratiya ictimai həyatın hərtərəfli demokratikləşməsini, siyasiləşməsini və həyatın bütün sferalarına aid qərarların qəbul edilməsində hər bir vətəndaşın öz səs hüququndan istifadə edərək iştirakçılıq hüququnu təmin edir.

Siyasi demokratiyanın tədqiqinin vacibliyi həm də belə bir zərurətdən doğur ki, o, bütün cəmiyyət sistemlərinin obrazı kimi mənalanır. Axı, hər hansı tədqiqatçılıq yönümü konseptual-normativ xarakterə malikdir.

Siyasi demokratikləşmənin prinsipləri və təsisatları siyasi təcrübədə işlənib hazırlanmış müxtəlif demokratik texnologiyalarla reallaşır. Siyasi demokratiya siyasi hakimiyyətin təşkili və həyata keçirilməsi forması olmaq etibarilə, o halda effektli ola bilər ki, müəyyən sosial şərtlərin və sosial zəminin məcmusuna malik olsun. Siyasi demokratikləşmə prosesinin əhəmiyyətli tərkib hissəsi müasir de-

mokratiya üçün səciyyəvi olan universal demokratik proseduranın işlənib hazırlanmasıdır.

Dissertasiyanın aktuallığını əks etdirən məqamlardan biri də məhz, demokratik tranzitin milli spesifiklik və ümumi xüsusiyyətlər kontekstində araşdırılmasıdır. Bununla bağlı qeyd etmək vacibdir ki, siyasi tranzitin dünya miqyasında qəbul edilən hər hansı universal modelinə təsadüf etmək çətindir.

Tədqiqat mövzusunun aktuallığını şərtləndirən cəhətlərdən digəri ondan ibarətdir ki, "demokratikləşmə" anlayışı ilə müqayisədə "modernləşmə" anlayışına aid çoxsaylı elmi mövqelər və konsepsiyalar mövcud deyildir. Bu onunla bağlıdır ki, demokratiyaya nisbətən modernləşmə qədim tarixə malik deyil. "Ümumi demokratiya" və "siyasi demokratiya" anlayışlarından fərqli olaraq "modernləşmə" və "siyasi modernləşmə" anlayışlarına aid müqayisəli tədqiqatlar və təhlillər də kifayət dərəcədə deyildir.

Siyasi modernləşmə probleminin xüsusi tədqiqat obyekti kimi seçilməsini zərurətə çevirən müasir ciddi amillərdən biri də qlobal informasiyadır. Qlobal informasiya şəraitində siyasi sferanın da qlobal genişlənməsi baş verir. İnformasiya texnologiyalarının təsiri sayəsində siyasi modernləşmənin modelləri, forma və metodları dəyişikliyə məruz qalır.

Mövzunun xüsusi aktuallığını və əhəmiyyətini müəyyənləşdirən məsələlərdən biri də Azərbaycan Respublikasının demokratikləşməsi prosesində cəmiyyətin siyasi modernləşməsinin tədqiqi zərurətidir. Demokratik tipli siyasi və eləcə də iqtisadi qaydaların təşəkkülü zəmininin və mexanizminin əsaslandırılması siyasət nəzəriyyəsinin son dərəcə mürəkkəb problemidir. Bu mənada Azərbaycan cəmiyyətində demokratik siyasi və iqtisadi sistemin öyrənilməsi olduqca vacib məsələlərdən biridir. SSRİ-nin süqutu Azərbaycan Respublikasının Konstitusiya sistemində bazar iqtisadiyyatı, siyasi demokratiya və unitar dövlət quruculuğu istiqamətində köklü dəyişikliklərə gətirib çıxartdı.

Cəmiyyətimizin siyasi sisteminin inkişafı prosesində dövlət hakimiyyətinin modernləşməsi fenomeninin tədqiqi müasir siyasi elmin ən mürəkkəb və eləcə də ən aktual problemlərindən biridir. Dövlət hakimiyyəti ölkənin milli-dövlət mənafeyinin reallaşmasının

başlıca vasitəsi kimi çıxış edir. Ümummilli lider Heydər Əliyevin vurğuladığı kimi, "Bu gün Azərbaycan suveren və inkişaf etmiş dövlətdir. Biz arzu edirik ki, müstəqilliyimiz əbədi olsun, öz taleyimizin sahibi olaq, dünya birliyində müstəqil dövlət kimi öz yerimizi tutaq"[1].

Azərbaycan Respublikasında demokratik siyasi sistemlə yanaşı, yeni iqtisadi, milli iqtisadiyyatın formalaşması və modernləşməsi cəmiyyətimizin transformasiya mərhələsinin obyektiv qanunauyğunluğudur. Milli iqtisadiyyatın formalaşması və modernləşməsində bir sıra amillər, xüsusilə neft amili başlıca rol oynayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş və zəngin məlumatları əhatə edən "Azərbaycanın Xəzər nefti" kitabında neft müqavilələrinin bağlanması prosesində meydana çıxan çətinliklərin mahiyyətini açaraq belə qənaətə gəlir: "Biz istəyirik ki, Azərbaycan rəqabət meydanı deyil, müxtəlif mənafelər arasında əməkdaşlıq zonası olsun".[2]

Azərbaycanda modernləşmə tarixən dövlətçiliyin təkamülü gedişində, ənənəvi cəmiyyətin müasir cəmiyyətə tranziti prosesində baş vermişdir və dövlətçiliyin inkişafının müxtəlif mərhələləri özünəməxsus xüsusiyyətlərlə fərqlənmişdir. Dövlətçiliyimizin gedişinə və müasirləşmə prosesinə müxtəlif daxili və xarici amillər müəyyən təsir göstərmişdir. Bu prosesin elmi araşdırılması bu gün həmişəkindən daha artıq aktuallılq kəsb edir. Akademik R.Mehdiyevin qeyd etdiyi kimi, "Qərbləşmənin və modernləşmənin Azərbaycan cəmiyyətinə təsiri ilə bağlı məsələlər elmi təhlillər müstəvisnə çıxarılmışdır".

Demokratiya, siyasi demokratiya, siyasi demokratikləşmə probleminin öyrənilməsinə xarici və yerli tədqiqatçılar tərəfindən xeyli tədqiqat işləri həsr edilmişdir, mövcud problemin müxtəlif aspektləri bəzi kollektiv xarakterli əsərlərdə də öz əksini tapmışdır. Eyni zamanda modernləşmənin müxtəlif tərəflərinin araşdırılması da bu və ya digər dərəcədə ayrı-ayrı müəlliflərin diqqətindən yayınmamışdır. Lakin həmin tədqiqat işlərində siyasi demokratikləşmə prosesində cəmiyyətin siyasi modernləşməsi probleminə toxunulmamışdır, bu problemin öyrənilməsi tədqiqatçıların diqqətindən yayınmışdır.

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir 46 cilddə. XXV kitab, Bakı, 2009, s. 75.
[2] Алиев И. Каспийская нефть Азербайджана. М., Известия, 2003, 712 с.

Modernləşmənin müəyyən aspektlərinə maraq respublikamızın alimlərinin bir sıra tədqiqat işlərində nəzərə çarpır. Tədqiq edilən problemin nəzəri və ideoloji parametrləri akademik R.Mehdiyevin əsərlərində əksini tapmışdır. İ.Məmmədzadə Azərbaycanda modernləşmə və islam probleminin öyrənilməsinə, eləcə də modernləşmənin ideoloji aspektini aydınlaşdırmağa cəhd etmişdir. Bu istiqamətdə professor N.Ələkbərova demokratiya və postdemokratizm nəzəriyyələrinin müəyyən aspektlərinə diqqət yetirmiş, Ə.Abbasov demokratiyanın mövcudluğunun mahiyyətini və dəyərlərini araşdırmışdır. Ə.Abdullayev demokratiyanın xüsusi siyasi dəyəri olmaq etibarilə insan hüquqlarının beynəlxalq səviyyədə mənalandırılması məsələsini açıqlamağa səy göstərmişdir.

R.Həsənov isə demokratiya şəraitində vətəndaş cəmiyyətinin formalaşması xüsusiyyətlərini açıqlamağa cəhd etmiş, D.İsmayılov demokratik cəmiyyət quruculuğu ilə bağlı müasir demokratiya konsepsiyalarının müqayisəli təhlilini və eləcə də Azərbaycan cəmiyyətinin demokratiyaya keçidi məsələsini araşdırmışdır. M.Əfəndiyev siyasi demokratiya, modernləşmə nəzəriyyəsi kimi müasir aktuallıq kəsb edən fenomenlərin aydınlaşdırılmasına səy göstərmişdir. Ş.Əhmədova dövlət hakimiyyətinin modernləşməsi problemini tədqiq etmişdir. Lakin bu tədqiqat işlərində siyasi demokratikləşmə və cəmiyyətin siyasi modernləşməsi öz əksini tapmamışdır.[1]

Qərb siyasi elmində demokratiya və modernləşmə problemləri müxtəlif aspektlərdə bu və ya digər dərəcədə nəzərdən keçirilimişdir. A.de.Tokvil Amerikada demokratiya, S.Hantinqton gələcək de-

---

[1] Mehdiyev R.Azərbaycan: qloballaşma dövrünün tələbləri, Bakı: XXI Yeni Nəşrlər Evi, 2005; Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: Modernləşmə xətti. Bakı: Şərq-Qərb, 2008; Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009; Ələkbərova N. Siyasi elmin müasir problemləri. Bakı: Elm və Təhsil, 2013; Абульгасан А. Демократия: наличная и должная. Баку: Адилоглу, 2005; Abdullayev Ə. və b., İnsan hüquqları. Beynəlxalq və milli müdafiə mexanizmləri. Bakı: 2008; Гасанов Р.М. Формирование гражданского общество в условиях трансформации. Bakı: Kitab aləmi, 2003; İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005; Əfəndiyev M. Politologiya. Bakı: Elm, 2013; Ахмедова Ш.Ф. Проблемы модернизации государственной власти в Азербайджанской Республике в условиях глобализации. Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyanın avtoreferatı. Bakı: 2014;

mokratik proses, R.Dahl demokratiya, Q.O'Donnell deleqativ demokratiya mövzusunda tədqiqat işləri aparmışlar. D.A.Rastou demokratiyaya keçid, A.Y.Melvil demokratik tranzit, R.Aron demokratiya və totalitarizm A.Leyphart çoxmillətli cəmiyyətdə demokratiya kimi məsələləri tədqiq etmişlər.[1]

Rusiya siyasi elmində isə demokratiya və siyasi demokratiya ilə yanaşı, modernləşmənin müxtəlif aspektləri araşdırılmışdır. R.T.Muxayev siyasi inkişaf kontekstində modernləşmənin istiqamətlərini, B.S.Yerasov modernləşmənin sosial-mədəni aspektini araşdırmışdır. A.İ.Solovyov siyasi modernləşmənin inkişaf mərhələlərini, V.P.Puqaçev demokratiyanın zəmini və yollarını, siyasi sistemin və cəmiyyətin ümumi modernləşməsi texnologiyasını tədqiqat obyekti seçmişlər. V.K.Mokşin siyasi modernləşmənin mərhələlərini, B.A.İsayev və N.A.Baranov Rusiyada demokratik prosesin problemlərini və siyasi modernləşmənin xüsusiyyətlərini tədqiq etmişlər.

S.Lantsov siyasi modernləşmə kontekstində Rusiyada tarixi təcrübəni, K.Q.Xolodkovski Rusiyanın gələcəyi ilə bağlı tarixi aspektdə siyasi modernləşməni işləyiblər.

V.N.Lukin, T.V.Musiyenko və T.H.Fedorova modernləşmənin qarşılıqlı əlaqə kəsb edən növlərini araşdırmışlar. Belarus alimləri isə kollektiv xarakterli geniş həcmli postmodernizm probleminə aid əsəri elmi dövriyyəyə bəxş etmişlər.[2]

---

[1] Токвиль Алексис де. Демократия в Америке. М.: Весмир, 2000, 560 с.; Хантингтон С. Столкновение цивилизаций? // Полис, 1994, №1, с. 33-48; Даль Р. О демократии. М.: Аспект Пресс, 2000, 203 с.; Растоу Д.А. Переходы к демократии: попытка динамической модели // Полис, 1996, №5, с. 5-16; Мелвиль А.Ю. Демократические транзиты. М.: Юнити, 1999, 418 с.; Лейпхарт А. Демократия в многосоставных обществах. Сравнительное исследование. М.: Аспект Пресс, 1997, 288 с.

[2] Мухаев Р.Т. Теория политики. М.: Юнити, 2005; Ерасов Б.С. Социальная культурология. М.: Аспект Пресс, 2000; Соловьев А.И. Политология. М.: Аспект Пресс, 2006; Пугачев В.П., Соловьев А.И. Введение в политология. М.: Академический проект, 2010; Мокшин В.К. Политология.М.: Академический проект, 2010; Исаев Б.А., Баранов Н.А. Политические отношения и политический процесс. СПб: Питер, 2009; Ланцов С. Российский исторический опыт в свете концепций политический и модернизации // Полис, 2001, №3; Холодковский К.Г. Демократия и реформы // Гражданское общество в России: западная парадигма и российская реальность. М.: ИМЭМО, 1996; Лукин В.Н.,

Lakin həm Azərbaycan, həm də xarici ölkələrin qeyd olunan alimlərinin baxılan problemlərin müxtəlif aspektlərinə həsr olunmuş tədqiqat işlərində bir-birilə qarşılıqlı əlaqəyə malik olan və biri digərini şərtləndirən siyasi demokrtikləşmə ilə siyasi modernləşməyə bu proseslərin müqayisəli təhlilinə kifayət qədər diqqət yetirilməmişdir. İndiyə qədər siyasi demokratikləşmə prosesində cəmiyyətin siyasi modernləşməsi problemi həmin sahədəki elmi ədəbiyyatlarda xüsusi tədqiqat obyektinə çevrilməmişdir ki, bu da təqdim olunan dissertasiya işinin və onun elmi nəticələrinin və dəyərini müəyyən edir.

**Tədqiqatın obyekti və predmeti.**Tədqiqatın obyektini hazırki şəraitdə siyasi demokratikləşmə prosesində cəmiyyətin siyasi modernləşməsi ilə bağlı yaranan yeni aktual problemlər, siyasi modernləşmənin təməl prinspləri, siyasi demokratikləşmə və siyasi modernləşmənin formalaşması mexanizmi və əsas istiqamətləri, Azərbaycanın demokratikləşməsi prosesində siyasi modernləşmənin mahiyyəti ilə şərtlənən əhəmiyyətli məsələlər təşkil edir. Tədqiqatın predmetini cəmiyyətin siyasi modernləşməsi yönümündə həyata keçirilən islahatlar, müasirləşmə ilə bağlı dövlətin fəaliyyəti və eləcə də yaranan problemlərin elmi və siyasi təhlili təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.**Dissertasiya işinin başlıca məqsədi Azərbaycanda siyasi demokratikləşmə prosesində cəmiyyətin siyasi modernləşməsinin mahiyyəti, məzmunu və xüsusiyyətlərini araşdırmaqdan, bu kontekstdə dünya təcrübəsini nəzərdən keçirməklə siyasi modernləşmənin istiqamətlərini, modellərini, mövcud konsepsiyaları təhlil etməkdən ibarətdir.

Qeyd edilən məqsədə nail olmaq üçün aşağıdakı tədqiqat vəzifələri müəyyən edilmiş və yerinə yetirilmişdir.

- müasir mərhələdə siyasi demokratiyanın təzahür xüsusiyyətlərini üzə çıxarmaq;
- siyasi demokratikləşmənin mahiyyətini təhlil etmək kontekstində onun sosial-siyasi dəyərlərini müəyyənləşdirmək;
- demokratik tranziti siyasi demokratikləşmənin zəruri zəmini

---

Мусиенко Т.В., Федорова Т.Н. Теория Политики. М. – «Изд-во дом Терда», 2007; Постмодернизм. Энциклопедия. Минск: Дом книги, 2001.

kimi elmi və siyasi təhlillər müstəvisinə çıxarmaq;

- modernləşmə anlayışının mahiyyətini və məzmununu açıqlamaq, onun həyata keçirildiyi siyasi, iqtisadi və mənəvi sferaları sistemli təhlil etmək və müvafiq ümumiləşdirmələr aparmaq;
- siyasi modernləşmə konsepsiyasının metodologiyası, başlıca istiqamətləri və əhəmiyyətini elmi təhlillər süzgəcindən keçirmək;
- siyasi modernləşmənin modelləri və mərhələlərini siyasi təhlilin obyekti kimi araşdırmaq;
- siyasi modernləşmənin məzmununu təhlil etmək zəminində onun xüsusiyyətlərini üzə çıxarmaq;
- cəmiyyətin siyasi modernləşməsini onun siyasi inkişafı kontekstində təhlil edib ümumiləşdirmələrə cəhd etmək;
- demokratik siyasi sistemin mahiyyətini aydınlasdıraraq onun modernləşməsinin istiqamətlərini müəyyənləşdirmək;
- qloballaşmanın müasir sosial-siyasi aspektinin təhlili ilə bağlı hazırda meydana çıxan modernləşmə problemlərinin kompleks, sistemli araşdırılması;
- Azərbaycan cəmiyyətində siyasi modernləşmənin mahiyyəti və səciyyəvi xüsusiyyətlərini açıqlamaq, yeni siyasi və iqtisadi sistemin formalaşması və modernləşməsi prosesinin dinamikasını izləmək;
- Azərbaycanın modernləşməsini siyasi-mənəvi dəyərlər kontekstində təhlil etmək və bununla bağlı konkret təklif və tövsiyələr irəli sürmək.

**Tədqiqatın metodları.**Tədqiqat işinin nəzəri əsasını ilk növbədə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin respublikamızda hüquqi dövlət qurulması, demokratik sivil cəmiyyət yaradılması, müstəqil dövlət quruculuğu, müasirləşmə haqqında ideyaları, tədqiqat probleminə dair konseptual fikirləri, eləcə də problemlə bağlı Azərbaycanın və xarici ölkələrin tanınmış alimlərinin dəyərli elmi tədqiqatları təşkil edir.

Tədqiqat işində baxılan problem çərşivəsində sosial-siyasi proseslərin dərk olunmasında analiz və sintez, induksiya və deduksiya kimi ümummәntiqi metodlardan, sistemli yanaşma əsasında struktur-funksional, tarixi-müqayisəli politoloji təhlil, kontent-analiz me-

todlarından istifadə olunmuş, istifadə edilən çoxsaylı müasir ədəbiyyatın dərin elmi təhlilinə cəhd edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**Dissertasiyada siyasi demokratiya ilə siyasi modernləşmənin əlaqəsinə, siyasi demokratiyanın formalaşması və inkişafına, siyasi modernləşmənin nəzəri və praktiki aspektinə dair mühüm elmi mülahizələr nəzərdən keçirilib. Siyasi demokratiyanın, demokratik siyasi qaydaların formalaşmasına bilavasitə təsir göstərən çoxsaylı müxtəlif şərait və amillər təhlil edilərək aşağıdakı tezislər müəyyənləşdirilib:

- ölkənin iqtisadi inkişafının kifayət qədər yüksək səviyyəsi;
- bazar münasibətlərinin və sənaye iqtisadiyyatın mövcudluğu;
- urbanizasiya;
- kütləvi kommunikasiyanın inkişafı;
- xarici dövlətlərin demokratiyada ifadə olunan köməyi.

Siyasi demokratiyanın formalaşması və inkişaf şəraitini reallaşdıran demokratik siyasi rejim xalqın hakimiyyətin mənbəyi kimi tanınması ilə bağlıdır və vətəndaşların siyasi həyatda geniş iştirakı, onların siyasi hüquq və azadlıqlarının praktiki reallaşması vasitəsilə hakimiyyət strukturlarının formalaşması prosesini təmin etməlidir.

Siyasi modernləşmənin müvəffəqiyyətli şərti elita və əhali arasında dialoq vasitəsilə sabitliyin bərqərar edilməsinə nail olmaqdan ibarətdir. Bu prosesdə, prinsipcə, hadisələrin inkişafının dörd başlıca tezis irəli sürülüb:

1. Sıravi vətəndaşlar üzərində elitanın rəqabətinin üstünlüyü şəraitində cəmiyyətin ardıcıl demokratikləşməsi və islahatların həyata keçirilməsi üçün daha optimal zəmin formalaşır;

2. Əhalinin başlıca kütləsinin fəaliyyətinin aşağı olması və elitanın rəqabətinin xeyli güclənməsi şəraitində avtoritar rejimlərin təşkili və dəyişikliklərin dayanması üçün zəmin təşəkkül tapır;

3. Əhalinin siyasi iştirakçılığının elita ilə yarışı üzərində üstünlüyü oxlokratiyaya meylin artmasına imkan yaradır, bu isə rejimi təxribatlara vadar edir və dəyişiklikləri ləngidir;

4. Eyni zamanda elitanın yarışqanlığının və əhalinin siyasi iştirakçılığının minimuma enməsi hərcmərcliyə, sosiumun və siyasi sistemin dezinteqrasiyasına səbəb olur, eləcə də diktaturanın təşkilinə imkan yaradır.

5.Ümumiyyətlə, siyasi modernləşmənin xarakteri və dinamikası suveren elita ilə sıravi vətəndaşların siyasətə cəlb olunması arasındakı uyğunluqla ölçülür.

6.Transformasiya dəyişikliklərini həyata keçirən müasir Azərbaycan cəmiyyəti də meydana çıxan problemləri özünəməxsus həll edir, zamanın çağırışına əsl cavab verir.

Keçid proseslərinin qeyri-sabitliyinin və qeyri-tarazlığının universal parametrləri hadisələri təfərrüatına qədər təhlil etmək, davam edən transformasiyanın nəticələrini müəyyənləşdirmək imkanı vermir. Eyni zamanda, demək olar ki, aparılan islahatların xarakteri və sürəti cəmiyyətin modernləşmə ziddiyyətlərini həll etməsindən asılıdır.

**Tədqiqatın elmi yeniliyi.** Aktuallığı və sosial-siyasi əhəmiyyəti nəzərə alınmaqla təqdim olunan tədqiqat işinin elmi yeniliyi aşağıdakı müddəalarla müəyyənləşdirilmişdir:

- demokrtiya anlayışından çıxış edərək siyasi demokratikləşmə, siyasi demokratiya fenomenləri demokrastik-sivil cəmiyyətin çox vacib şərti kimi əsaslandırılmışdır;
- siyasi demokratikləşmənin modern mahiyyəti və sosial-siyasi dəyərləri üzə çıxarılmışdır;
- demokratik tranzit siyasi demokratikləşmənin zəruri zəmini kimi araşdırılmaqla, transformasiya prosesinin qanunauyğunluğu kimi izlənmişdir;
- modernləşmə konsepsiyası siyasi inkişafın spesifik nəzəri modeli kimi əsaslandırılmış, "ümumi modernləşmə" anlayışından çıxış edərək bu anlayışın cəmiyyətin bütün həyat fəaliyyəti sferalarını əhatə etməsi meyarları müəyyənləşdirilmişdir;
- siyasi modernləşmə konsepsiyalarının özünəməxsus metodologiyası işlənib hazırlanmış, bu modernləşmənin başlıca istiqamətləri, mərhələləri və əhəmiyyəti elmi-analitik təhlillər predmetinə çevrilmişdir;
- siyasi modernləşmənin modelləri və mərhələləri siyasi təhlilin obyekti kimi dəyərləndirilmişdir;
- siyasi modernləşmənin məzmununun açıqlanması kontekstində onun xüsusiyyətləri, dəyərli sosial çalarları elmi təhlil müstəvisinə çıxarılmışdır;

- cəmiyyətin siyasi modernləşməsi sosiumun siyasi inkişafı kontekstində təhlil edilmiş, siyasi modernləşmə və siyasi inkişafın qarşılıqlı əlaqəsinin mexanizmi müəyyənləşdirilmiş və eləcə də həmin əlaqə müasirləşmənin obyektiv qanunauyğunluğu kimi üzə çıxarılmışdır;
- demokratik siyasi sistemin mahiyyəti, dinamikası ilə şərtlənən siyasi modernləşmənin istiqamətləri nəzərə çatdırılmışdır;
- qlobal siyasi məkanın xarakteri ilə bağlı müasirləşmənin yeni problemlərinin həlli vasitələri və texnologiyaları təklif edilmişdir;
- Azərbaycan Respublikasında demokratik siyasi və iqtisadi sistemin formalaşması ilə bağlı bu sistemin modernləşməsinin tarixi zəruriliyi və ictimai qanunauyğunluğu əsaslandırılıb və ümumiləşdirmələrlə tamamlanıb;
- Azərbaycan cəmiyyətində siyasi modernləşmənin ümumi və milli xüsusiyyətlərinin müqayisəli təhlili əsasında respublikamızda modernləşmənin perspektivi proqnozlaşdırılmışdır;
- Azərbaycanda siyasi modernləşmə prosesləri siyasi-mənəvi dəyərlər kontekstində araşdırılmış, səciyyəvi xüsusiyyətləri açılıb göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın praktiki əhəmiyyəti qloballaşan siyasi məkanda siyasi demokratiya, siyasi demokratikləşmə, modernləşmə və xüsusilə siyasi modernləşmə haqqında, bunlarla bağlı dövlətin əhəmiyyətli fəaliyyətinin istiqamətləri barədə tam təsəvvür yaratmasındadır.

Dissertasiyanın əsas müddəaları və nəticələrindən aşağıdakı istiqamətlərdə istifadə edilməsi faydalı olardı:
- mövzu ilə bağlı gələcək tədqiqat işlərinin aparılmasında;
- müvafiq profil üzrə mütəxəssislər hazırlayan ali təhsil müəssisələrində siyasət elmin müvafiq fənlərinin tədrisində mühazirə, məşğələ və xüsusi kursların keçirilməsində, dərsliklərin, dərs vəsaitlərinin və monoqrafiyaların hazırlanmasında;
- problemlə bağlı elmi konfransların keçirilməsində;
- demokrtikləşmə və siyasi modernləşmə ilə bağlı müvafiq dövlət orqanlarının və ictimai strukturların, kütləvi informasiya vasitələrinin fəaliyyətində.

**Aprobasiya və tətbiqi.** Dissertasiya işi Azərbaycan Milli Elm-

lər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq" şöbəsində müzakirə edilmiş və müdafiəyə tövsiyə olunmuşdur. Təqdim olunan işin başlıca müddəa və nəticələrinin ehtiva edildiyi 27 məqalə Azərbaycan Respublikasında və xarici ölkələrdə nəşr olunan nüfuzlu elmi jurnallarda dərc edilmiş, çıxışlar yerli və xarici elmi-praktik konfransların materiallarında əksini tapmışdır.

Tədqiqat mərhələsində doktorantın araşdırılan mövzu ilə bağlı bir monoqrafiyası çap edilmişdir.

**Dissertasiyanın yerinə yetirildiyi təşkilat:** Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutu.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Tədqiqat işi giriş, dörd fəsil, 13 yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Giriş 4298, I fəsil 16231; II fəsil 12093; III fəsil 22132; IV fəsil 12652; Nəticə 3149; bütövlükdə, tədqiqat işinin həcmi 75917 işarədən ibarətir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Girişdə tədqiqat mövzusunun aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi səciyyələndirilmiş, işin məqsəd və vəzifələri müəyyənləşdirilmiş, elmi yeniliyi açıqlanmış, tədqiqat metodları müəyyən edilmiş, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti göstərilmiş, aprobasiya və dissertasiyanın strukturu barədə məlumatlar əksini tapmışdır.

Dissertasiyanın ***"Siyasi demokratikləşmə demokratik-sivil cəmiyyətin vacib şərti kimi"*****adlanan birinci fəslində** siyasi demokratiyanın mahiyyəti, məzmunu, xüsusiyyətləri, siyasi demokratiyanın modern mahiyyəti və sosial dəyərləri tədqiq edilmiş, həmçinin demokratik tranzit siyasi demokratikləşmənin zəruri zəmini kimi nəzərdən keçirilmişdir. Bu fəsil üç paraqrafdan ibarətdir.

Fəslin ***"Siyasi demokratiya" anlayışı: mahiyyəti, məzmunu, xüsusiyyətləri"***adlanan birinci yarımfəslində qeyd edilir ki, demokratiya real həyatın mürəkkəb və çoxcəhətli hadisəsi kimi çıxış et-

məklə, ictimai həyatın ən müxtəlif sferalarında maddiləşir və öz təzahürünün xeyli yolları və üsullarına malikdir. Bəzən ədəbiyyatda demokratiya yalnız ictimai həyatın siyasi sferasına aid edilir, lakin o, iqtisadi, sosial, mədəni, elmi, ideoloji sferalarda da yayılır. Demokratiya "xalqı hakimiyyətin mənbəyi kimi təsdiqləməyə əsaslanan dövlət formasıdır, onun hüquqi dövlət işlərində iştirakından, vətəndaşların hüquq və azadlığının geniş dairəsi ilə əlaqələndirilməsindən ibarətdir".[1]

Demokratiya, onun bu və ya digər tərəfləri, təzahürünün ayrıca aspektləri barədə başqa təsəvvürlər də mövcuddur. Hazırda mövcud olan demokratiya nəzəriyyələrindən ən əhəmiyyətliləri plüralist, partisipar (və ya iştirakçılıq), konsosial, nümayəndəli, plebizm, birbaşa demokratiya nəzəriyyələridir. Demokratiya haqqında ən geniş yayılan plüralist demokratiya nəzəriyyəsidir. "Plüralizm" termini elmi dövriyyəyə ilk dəfə alman filosofu X.Volf tərəfindən XVIII əsrdə gətirilsə də, demokratiya nəzəriyyəsinin işlənib hazırlanmasında bu termindən məhz XX əsrin birinci yarısında istifadə edildi. Bu istiqamətdə ilk cəhd edənlər Q.Laski, D.Trumen, R.Dahl və başqaları hesab olunur. Plüralist demokratiya nəzəriyyəsi belə bir müddəadan çıxış edir ki, müasir demokratik dövlətdə siyasətin hərəkətverici qüvvəsi kimi şəxsiyyət, xalq deyil, məhz qrup çıxış edir. Plüralist demokratiya konsepsiyasında, demokratiya onun müxtəlif qüvvələr arasında diffuziyası şəraitində formalaşan hakimiyyətin təşkilinin tipi kimi araşdırılır. Siyasi plüralizm isə siyasi partiyaların, təşkilatların və hərəkatların, onların görüşlərinin, inamlarının, maraqlarının müxtəlif siyasi fəaliyyət növlərinin çoxluğu ilə səciyyələnir.

Azərbaycanda demokratik dövlət forması nümayəndəli demokratiyanın (seçkili orqanların fəaliyyəti) mövcudluğuna və əhalinin həyatı ilə bağlı qanunların, qərarların qəbulunda onların (parlament, bələdiyyə və s. şəklində) iştirakına əsaslanır ki, bu da inkişaf etmiş demokratiyalara ABŞ, Fransa, İngiltərə, Almaniya, Yaponiyaya xas xüsusiyyətdir.

Yürüdülən mülahizələri ümumiləşdirərək qeyd etmək olar ki, demokratiya azadlıq ideyasının qanuni statusla təsdiqlənməsi və

---

[1] Мелвиль А.Ю. Демократические транзиты. М., Юнити, 1999, s.79.

onun müəyyən praktiki üsullarla cəmiyyət həyatında reallaşmasıdır. Demokratik cəmiyyətin siyasi sisteminin başlıca xarakteristikası konstitusion idarəetmə, insan hüququ və hamının qanun qarşısında bərabərliyi prinsipindən ibarətdir. Vətəndaş cəmiyyəti ilə demokratik təsisatlar sisteminin qarşılıqlı əlaqəsi demokratik hökumət tərəfindən reallaşan siyasətin legitimliyinin effektivliyini təmin edir.[1]

Bütövlükdə, demokratiya, ayrılıqda isə siyasi demokratiya haqqında çoxaspektli, mürəkkəb və fərqli konsepsiyalar mövcud olsa da siyasi demokratiyanın hamı tərəfindən qəbul edilmiş birmənalı vahid tərifinə təsadüf olunmur. Mahiyyət etibarilə, siyasi demokratiya xalqın vasitəsilə idarəetmə formasıdır, hakimiyyətin peşəkar siyasətçilər tərəfindən həyata keçirilməsidir. O, xalqın "ümumi iradəsinin" formalaşması prosesi deyildir, məhz liderlərlə təmsil olunan qrupların mənafelərinin rəqabətə əsaslanan mübarizəsidir.

Siyasi iştirakçılıq iki başlıca formada ifadə edilir: birbaşa və vasitəli (nümayəndəli). Siyasi demokratiya baxımdan vətəndaşların siyasi iştirakçılığı üçün həm obyektiv şərait (siyasi qüvvələrin yerləşməsi, cəmiyyətin siyasi mədəniyyəti), eləcə də siyasi sistemə subyektiv münasibət, siyasətdə iştirakın motivləri, vətəndaşların tələbatları, bilikləri, məlumatlı olmaları və b. əhəmiyyət kəsb edir. Siyasi iştirakçılığın bu və ya digər təzahürünə ən müxtəlif amillər təsir göstərir: siyasi sistemin və rejimin xüsusiyyətləri; siyasi ənənə və siyasi mədəniyyət; siyasi təsisatlar və siyasi qüvvələrin yerləşdirilməsi; mədəni-təhsil səviyyəsi elmə aid ədəbiyyatda dəqiq ifadə edildiyi kimi, "vətəndaşların yüksək rifah halından kənarda, müəyyən mənəvi ənənələrsiz, müvafiq siyasi-mədəni zəmindən məhrum olan demokratiya qeyri-mümkündür".[2]

Birinci fəslin ***"Siyasi demokratikləşmənin modern mahiyyəti və sosial-siyasi dəyərləri"***adlanan iknci yarımfəslində qeyd edilir ki, müasir dünyada ümumi, qlobal demokratikləşməni daxili və xarici amillərin vəhdəti və qarşılıqlı təsirindən kənarda təsəvvür etmək çətindir. Siyasi demokratikləşmə hər şeydən əvvəl, demokratik cəmiy-

---

[1] Hetherington M.J. The Political Relevance of Political Trust // American Science Review, 1998, v,92, 239 p.
[2] Əfəndiyev M. Siyasi elmin əsasları. Bakı, Siyasət, 2004, s. 89.

yətin təşəkkülü və möhkəmlənməsinə yönələn çoxistiqamətli siyasi dəyişikliklər prosesidir.

Siyasi demokratikləşmə ilə bağlı müxtəlif tədqiqatçıların fikirləri maraq doğurur. Məsələn, Con Drayzek işləyib hazırladığı "deliberativ (məsləhətçi) demokratiya" nəzəriyyəsində hər şeydən əvvəl, demokratiyanın liberal şərhini tənqid edərək, bu modeli siyasi mənafelərin sadəcə birləşdirilməsi forması hesab edir. Belə nəzəri axtarışlarla kifayətlənməyərək standart olmayan öz nəzəri müddəalarının dünya siyasəti probleminə tətbiqini məsləhət bilir. O, demokratik "autentilik" konsepsiyasına əsaslanır və bu konsepsiyanı "kommunikasiya" vasitəsilə həyata keçirilən demokratik nəzarətin dərəcəsi, səviyyəsi" kimi başa düşür.[1] A.Yanq isə demokratik siyasi prosesin prosessual aspektini vurğulayaraq belə mövqedən çıxış edir ki, demokratik qərarların normativ legitimliyi kiminsə demokratik qərarların qəbulu prosesinə nə dərəcədə cəlb edilməsinə, bu prosesdə hansı səviyyədə iştirakına və həmin qərarların nəticələri üçün daşıdığı məsuliyyətə əsaslanır.[2] A.Yanq demokratik prosesə cəlb olunmağın real şərtini yalnız siyasi iştirakçılığın sosial-iqtisadi amilləri ilə deyil, ilk öncə, vətəndaşların bütün səviyyələrdə öz siyasi hüquqlarından hüquqi təminatla istifadə etmələri, eləcə də şəxsiyyətin qlobal prosesdə iştirakına hüquqi təminat verilməsi ilə əlaqələndirir və əsaslandırır.

Fikrimizcə, demokratikləşmənin ən əhəmiyyətli ümumi şərti siyasi sabitlikdir. Siyasi sabitlik ölkənin idarə olunmasında dövlət təsisatlarını saxlamaq şərtilə, qanun çərçivəsində cəmiyyətdə islahatları, dəyişiklikləri nəzərdə tutur. Nəinki demokratiyanın təşəkkülü və inkişafı, eləcə də siyasi demokratikləşməyə təsir göstərən bütün səbəb və amillər bu və ya digər formada elitar dairələrin düşüncə tərzində təzahür edir. Elitar dairələr mənsub olduqları ölkələrdə demokratik siyasi qaydaların yaradılmasını qarşılarına məqsəd qoyurlar.Demokratiyanın inkişafı bütün cəmiyyətlərdə eyni modelə, standart meyarlara əsaslanır. ABŞ, İngiltərə, Almaniya, Fransa, İsveç

---

[1] Democracy. Cambridge, 1996, p.8.

[2] Kaufmann L.L. Democracy in a postmodern World // "Sosial Policy" (fall) 1990, N6, p.120.

təcrübəsi də sübut edir ki, bu dövlətlərdə formaca vahid demokratiya qurulub. Bu ölkələr də demokratiyanın universal dəyərlərindən bəhrələnərək, demokratik inkişafı hər bir ölkənin mədəni-tarixi inkişafının xüsusiyyətləri ilə uzlaşdırırlar.

Siyasi demokratikləşməyə bu və ya digər mövqedən yanaşılmasına baxmayaraq, ona aid yaradılan hər hansı model demokratiyaya daxilən xas olan ziddiyyətləri nəzərdən qaçırmamalıdır. Praktiki dəyişikliklərdə həmin ziddiyyətlərə etinasızlıq layihələşdirilən məqsədləri şübhə altına ala bilər, dövlətin resurslarının tükənməsinə, kütlələrin və ya elitanın demokratik cəmiyyət ilə bağlı ümidsizliyinə, hətta demokratik rejimlərin totalitar və avtoritar rejimlərə çevrilməsinə gətirib çıxara bilər.

Siyasi demokratikləşmə prosesinin modern mahiyyətini səciyyələndirən ən mühüm xüsusiyyətlərdən digəri siyasi plüralizmdir. Siyasi demokratiyanın prinsipi olmaq etibarilə, plüralizm inhisarçılığın bütün formalarına qarşı çıxır. Siyasi demokratikləşmənin daha bir əhəmiyyətli şərti kütləvi kommunikasiyanın inkişaf etməsidir. Böyük ərazisi və yüksək sayda əhalisi ilə fərqlənən ölkələrdə kütləvi kommunikasiyasız praktiki olaraq demokratiya qeyri-mümkündür. Siyasi demokratikləşmənin digər mühüm zəmini vətəndaşların rifahının, sosial həyatının yüksək səviyyədə olmasıdır. İctimai bolluq, firavanlıq cəmiyyətin demokratikləşməsinə əlverişli təsir göstərir.

Siyasi demokratikləşmənin modern mərhələsi sosial-siyasi dəyərləri əks etdirən bir sıra başlıca meyillərlə səciyyələnir. Həmin meyillərdən birincisi, siyasi hakimiyyətin demokratikləşməsi prosesinin intensivliyinin güclənməsidir. İkinci meyil sivil və demokratik hakimiyyətin mütləq əlaməti kimi legitimlik amilinin yüksəldilməsində təzahür edir. Üçüncü meyil siyasi hakimiyyətin təşəkkülü və fəaliyyətinin köklü cəhətlərindən biri olmaq etibarilə, hakimiyyətin bölünməsi sisteminin formalaşmasını səciyyələndirir. Dördüncü meyil hakimiyyətin müxtəlif qolları arasında ziddiyyətlərin artmasını əks etrdirən neqativ prosesi ifadə edir. Bu meyil bütün ölkələrdə iqtisadi və siyasi sabitliyə mənfi təsir göstərir. Unutmaq olmaz ki, sosial-siyasi dəyərlər kimi, siyasi demokratikləşmə təsisatları sistemində kütləvi informasiya vasitələri, ictimai rəy, çoxpartiyalılıq və daha çox seçkilər böyük əhəmiyyətə malik-

dir.

Birinci fəslin ***"Demokratik tranzit siyasi demokratikləşmənin zəruri zəminidir"***adlanan üçüncü yarımfəslində belə bir fikir vurğulanır ki, demokratik tranzit məqsəd deyil, məhz müasir sivil siyasi sistemin təşəkkülü, inkişafı və formalaşması üçün zəruri və əhəmiyyətli vasitədir, sabit sosial sistemin yaradılmasını şərtləndirən prosesdir. Qeyri-demokratik rejimdən demokratik siyasi rejimə tranzitin (keçidin) başlıca məzmununu bunlar təşkil edir: demokratik təsisatlar və normalar yaratmaq, eləcə də vətəndaşların hüquq və azadlıqlarını genişləndirmək əsasında siyasi sistemi yeniləşdirmək; məhdud çərçivədə həyata keçirilmiş islahatları daha da dərinləşdirmək; ictimai həyatın bütün sferalarını əhatə edən islahatları reallaşdırmaq; son nəticədə əsl islahatçı sosial qüvvələrin hakimiyyətə gəlməsini təmin etmək və s.

Demokratik tranzitdə siyasi dəyişikliklərin dinamikası barədə görüşlərin inkişafını iki mərhələ ilə səciyyələndirmək olar: XX əsrin 60-cı və 70-ci illərinin başlanğıcını əhatə edən ilk mərhələ və 70-90-cı illərini əhatə edən ikinci mərhələ. Tranzitologiyanın görkəmli nümayəndələri hesab edilən S.Lipset, Q.Almond, S.Verba və başqaları sabit demokratiyanın dörd böyük zəruri zəmininin mövcudluğunu nəzərə çatdırırlar: sosial-iqtisadi inkişaf; vətəndaş cəmiyyəti; siyasi qüvvələrin nisbəti; kommunist sisteminin inkişafı.[1]

Qlobal siyasi dəyişiklikləri ifadə etmək baxımdan "demokratik dalğa" terminini ilk dəfə S.Hantinqton işlətmişdir. Onun fikrincə, demokratikləşmə dalğası müəyyən zaman müddətində ölkələr qrupunu qeyri-demokratik rejimlərdən demokratik rejimlərə keçməsi prosesidir.[2]

Ümumiyyətlə, demokratikləşmənin inkişaf perspektivini səciyyələndirərək S.Hantinqton hesab edir ki, sosial və iqtisadi şəraitin əlverişli olmadığı indiki tarixi məqamda demokratiya cəmiyyətdə onun yayılması yolu ilə deyil, məhz möhkəmlənməsi vasitəsilə irəli-

---

[1] Ахиезар А.С. Россия как большое общество // Вопросы философии, 1993, №1, s.3-6.

[2]Huntington S. The Third Wave: Democratization in the Late Twentieth Century. London: Norman, 1991,14 p.

ləyəcək.[1]

Əlbəttə, demokratikləşmə sosial quruluşun dəyişməsinin ümumtarixi meylinə uyğun gələn ümumdünya prosesidir. Bununla yanaşı həmin proses bu və ya digər xalqlara spesifik tərzdə nüfuz edir. Demokratiyaya keçidin çoxsaylı əhəmiyyətli modellərində ilk öncə, demokratikləşmə proseinə başlıca diqqət yetirilir. Həmin analitik modellərdən liberal-demokratik model xüsusi maraq doğurur. Bu model hər şeydən əvvəl, siyasi sferada plüralizmin təzahürü ilə səciyyələnir. O, siyasi sferada siyasi qüvvələri, partiyaları, təşkilatları, siyasi qruplaşmaları və digər birlikləri nəzərdə tutur. Politoloji tədqiqatlarda demokratik tranzitin mərhələlərinə də diqqət yetirilmişdir. Siyasət nəzəriyyəsində adətən demokratiyaya keçidin bizim də məqbul saydığımız üç mərhələsi fərqləndirilir: liberallaşma, demokratikləşmə və sosiallaşma.

Vurğulamaq vacibdir ki, demokratik siyasi rejimin təşəkkülü dövlət aparatının yenidən formalaşması ilə bilavasitə bağlıdır. Demokratik tranzit müvafiq vətəndaş cəmiyyəti təsisatlarının da təşəkkülünü zərurətə çevirir. Vətəndaş cəmiyyətində yeni dəyərlər və həmin dəyərlər kontekstində siyasi və sosial qüvvələrin həmrəyliyi yaranır, mövqelərin müqayisəsi üçün əlverişli şərait təşəkkül tapır.

Müasir demokratikləşmə prosesinin səciyyəvi cəhəti ondan ibarətdir ki, demokratik tranzit başlıca olaraq demokratik metodla, hökumətlə müxalifətin danışıqları vasitəsilə, siyasi kompromis və konsensus yolu ilə və qeyri-zorakılıqla baş verir. XX əsrin sonunda baş verən demokratik prosesləri səciyyələndirən Braziliya tədqiqatçısı Fransisko C.Veffort hesab edir ki, "yeni demokratiya" adlandırılan təsisatlar demokratiya prosesində olan demokratiyadır.[2] Bu fikirdən belə qənaətə gəlmək olar ki, həmin demokratiya demokratik tranziti formalaşdırır.

***"Modernləşmə konsepsiyası inkişafın nəzəri modeli kimi"*** **adlanan ikinci fəsil üç** yarımfəsli əhatə edir. ***"Modernləşmənin mahiyyəti və növləri"*** adlanan birinci paraqrafda modernləşmə anlayışı

---

[1] Хантингтон С. Столкновение цивилизаций // Полис, 1994, №1, s.94.
[2] Веффорт Ф.С. Что такое «новая демократия?» // Международный журнал социальных наук. 1993, №3, s.125.

açılır, onun ictimai həyatın müxtəlif sferalarında təzahürünün səbəbləri, amilləri və xüsusiyyətləri təhlil olunur. XX əsrin 50-ci illərinin sonundan 70-ci illərinin əvvəllərinədək modernləşmə "Qərb liberalizminin universallıq ideyasına əsaslanan vesternizasiya konsepsiyası çərçivəsində işlənib hazırlandı. Lakin daha vacib paradiqmaların axtarışı gedişində "avropalaşma" və ya "qərbləşmə" (vesternizasiya) terminlərindən imtina etmək zərurəti yarandı. "Amerikalaşma" termininin saxlanması isə açıq şəkildə tənqidəlayiq və neqativ məna kəsb edən fikir kimi səsləndi.[1].

Modernləşmə dedikdə, industrial cəmiyyətə qədərki vəziyyətdən industriallığa, kapitalizmə keçidin kompleks islahatlar yolu ilə həyata keçirilməsi nəzərdə tutulur.[2]

Ümumi modernləşmə anlayışı ictimai həyatın bütün sferalarında (iqtisadi, sosial, siyasi, mədəni) baş verən dəyişiklikləri ifadə edir. Vurğulamaq lazımdır ki, modernləşmə cəmiyyətin ənənəvi aqrar vəziyyətdən industrial, sonra isə postindeustrial cəmiyyətə keçməsidir. "Modernləşmə bəşəriyyətin müasir xarakter kəsb etməsi, müasir qaydalara, görüşlərə, ideyalara, tələbata uyğunlaşmaq kimi səciyyələnir".[3]

Fikrimizcə, müasirləşmə industriallaşma bazasında ictimai proseslərin və dəyişikliklərin qarşılıqlı şərtlənməsini əks etdirir və özündə bunları ehtiva edir: əməyin ixtisaslaşmasının və differensasiyasının artması; bürokratiyanın möhkəmlənməsi; müasir tipli siyasi təsisatların (seçki sisteminin, siyasi partiyaların, parlamentarizmin) formalaşması; açıq stratifikasiya sistemi; yüksək mobillik; ənənəvi dəyərlərin (ailənin, dinin, əxlaqın) zəifləməsi və b. Əlbəttə, bütövlükdə modernləşmə nəzəriyyəsi ictimai inkişafın modeli kimi səciyyələnməklə, "ənənəvi" təkamül cəmiyyətindən "müasir", "innovasiyalı" cəmiyyətə mütərəqqi keçid prosesini izah edir. Bu proses insanın mülkiyyətdən və siyasi hakimiyyətdən özgələşməsinin aradan qalxması ilə müşahidə olunur.

Elmi ədəbiyyatda birinci və ikinci modernləşmə fərqləndirilir.

---

[1] Ерасов Б.С. Социальная културология. М., Аспект Пресс, 2000, s.455-456.

[2] Круглова Г.А. Социально-политические аспекты глобальных проблем современности и их место в христианстве. Мн, БГУ, 2004, s.170.

[3]Социологический энциклопедический словарь. М., Инфра. М-Норма, 1998, s.187.

Birinci və ya üzvi modernləşmə üzvi, daxili mənbələr hesabına həyata keçirilir. Onun inkişaf mexanizmini innovasiya, sürət təşkil edir. Modernləşmənin ikinci, qeyri-üzvi tipi daha inkişaf etmiş ölkələr tərəfindən çağırışa intellektual və siyasi "cavab" kimi təşəkkül tapmışdır. Modernləşmənin bu tipi kənar, ilkin modernləşən ölkələrin təsiri altında "modernit" mədəniyyətin yayılması ilə bağlıdır. Belə modernləşmə "vesternizasiya" formasında Qərbin effektli sosial, texniki və siyasi təsisatlarını mexaniki surətdə digər sosial mühitə köçürmək sayəsində baş verə bilər.[1]

Cəmiyyət sosial hadisələrin bilavasitə iştirakçıları tərəfindən şüurlu qaydaya salınır, tənzimlənir. Görkəmli tədqiqatçı Qiddens əminliklə qeyd edir ki, başlıca prinsiplər pozulduqda nəzarətə və proqnoza tabe omayan "struktur metadəyişikliklər" baş verdikcə sadə modernləşmə "refleksiv" forma kəsb edir.

Ayrı-ayrı ölkələrdə modernləşmənin öyrənilməsi belə nəticəyə gəlməyə əsas verir ki, modernləşmənin uğurlarını şərtləndirən başlıca element məhz sosial-mədəni faktordur. Geniş sosial təbəqələrin sərvət yönümünü dəyişdirmədən, patriarxal və təbəəçi siyasi mədəniyyəti aradan qaldırmadan modernləşmə daim böhranlar və kütləvi narazılıq doğurur.

Modernləşmənin sosial-iqtisadi, siyasi və xüsusilə sosial-mədəni aspektlərinin araşdırılması və müqayisəli təhlilinə ciddi diqqət yetirilməsi innovasiyalar prosesinin obyektiv tələbatıdır.

***İkinci fəslin "Siyasi modernləşmə konsepsiyalarının metodologiyası, başlıca istiqamətləri və əhəmiyyəti"***adlanan ikinci yarımfəslində belə bir müddəadan çıxış edilir ki, elmi tədqiqatın metodologiyası öyrənilən məsələnin dərk edilməsinə, onun tətbiqi metoduna, predmetin proqram məqsədlərinin və normativ öyrənilməsinə əsaslanan elmi axtarışın strategiyasıdır. Metodologiya elmi biliklərin əldə edilməsi və yoxlanılmasının analitik sulları sistemini özündə əks etdirir.

"Siyasi problemlərin öyrənilməsi metodologiyası xüsusi elmi sahə olmaqla, siyasi təfəkkürdə müxtəlif metodların tətbiqi haqqın-

---

[1] Лукин В.Н., Федоров Т.Н. Политичкские технологии. СПб., Изд. Дом Терда, 2007, s.286.

da təlimdir, o, problemin düzgün qoyuluşu və adekvat yanaşmanın seçimi ilə, metodoloji prinsiplərin transformasiyası, əməliyat və üsulların məcmusuna olan tələbatla bağlıdır”.[1]Hələ vaxtilə F.Nitsşe qeyd etmişdir ki, hər bir elmin başlıca kəşfi onun idrak metodudur.

Müasir politoloji ədəbiyyatda metodologiya normalar sistemi və onunla bağlı olan elmi təfəkkür metodu, problemin qoyuluşu və elmi axtarış metodu kimi başa düşülür. Praktiki olaraq bütün elmlər, eləcə də siyasi elm öz metodlarından rasional və məqsədyönlü istifadə edir. Siyasi modernləşmə, bütövlükdə isə modernləşmə konsepsiyalarının müəyyənləşdirilməsini də bu kontekstdən kənarda təsəvvür etmək düzgün deyil.

Belə bir fikri vurğulamaq daha çox vacibdir ki, bütün siyasi tədqiqatların, eləcə də siyasi modernləşmə konsepsiyalarının obyektivliyi, tamlığı, dəqiqliyi və elmi yeniliyi o halda mümkündür ki, onlar kompleks metodlara əsaslansın.

Müxtəlif tədqiqatçılar siyasi modernləşmə konsepsiyasından istifadə etməyin ayrı-ayrı variantlarını məqsədəuyğun hesab edirlər. Lakin ümumi qəbul edilmiş belə bir təkzib olunmaz fikri diqqətdən yayındırmaq düzgün deyil ki, nəzəriyyə tədqiqat prosesində kifayət qədər əhəmiyyətli yer tutur.

Qeyd etmək lazımdır ki, modernləşmənin variantlarının və yollarının ümumi formada seçilməsi probleminə aid nəzəri mübahisələr daha çox liberallarla mühafizəkarlar arasında baş vermişdir. Siyasi modernləşmə konsepsiyasının liberal istiqamətini təmsil edən Q.Almond, Pay və başqaları bildirirlər ki, cəmiyyətdə orta sinfin (və ya təbəqənin) meydana çıxması və insanların təhsilinin inkişafı belə fikir söyləməyə əsas verir ki, o, idarəetmənin təbiətində və eləcə də təşkilində ciddi dəyişikliklərə səbəb olur. Bütövlükdə isə modernləşmənin xarakteri və dinamikası azad elitanın açıq rəqabətindən və sıravi vətəndaşların siyasətə cəlb olunması dərəcəsindən asılıdır. Siyasi modernləşmə konsepsiyasının mühafizəkar istiqaməti isə modernləşmənin gedişini başqa nöqteyi-nəzərdən vurğulayır. Bu istiqamətə görə, modernləşmə prosesinin başlıca mənbəyini əhalinin “sə-

---

[1] Дегтряев А.А. Методы политологических исследований // А.А.Дегтряев, Вестн. МТУ, 1996, сер. 12, №6, s.56.

fərbərliyi” ilə, başqa sözlə, təzahür edən ziddiyyətlər sayəsində siyasi həyata cəlb olunmaqla “təsisatlaşma” arasındakı münaqişələr təşkil edir. Mühafizəkar istiqamətin tərəfdarları “təsisatlaşma” dedikdə vətəndaşların mənafeyinin ümumiliyi və əlaqələndirilməsi üçün müəyyən strukturların və mexanizmlərin mövcudluğunu vurğulayırlar.

Belə qənaətə gəlmək olar ki, XX-ci əsrin 70-80-ci illərindəki dəyişikliklər təcrübəsi modernləşmənin universal norma və tələblərinin mövcudluğunu nümayiş etdirdi. Bu isə sosial, iqtisadi və siyasi inkişafda müəyyən tərəqqinin əldə edilməsinə imkan yaratdı. Politoloji təhlilin spesifik məntiqi olmaqla, siyasi modernləşmə konsepsiyalarını araşdırarkən etiraf etmək lazımdır ki, bu araşdırma mürəkkəb keçid mərhələlərini açıqlamağa kömək edir. Həmin istiqamətdə formalaşan çoxsaylı tədqiqatlar dünya birliyinin öz təkamülünün industrial fazasına doğru inkişafının ümumi istiqamətini təsdiqləyir. Bu reallıq bir daha modernləşmə nəzəriyyəsinin, eləcə də siyasi modernləşmə konsepsiyalarının əhəmiyyətini əks etdirir.

Bu fəslin ***“Siyasi modernləşmənin modelləri və mərhələləri siyasi təhlilin obyekti kimi”***adlanan üçüncü yarımfəslində siyasi təhlil anlayışı açıqlanır, siyasi modernləşmənin spesifik modelləri və konkret mərhələləri araşdırılır, onların müqayisəli təhlilinə cəhd edilir.

Siyasi təhlil öz predmet dairəsi və digər cəhətləri ilə xüsusi elmi biliklər sferası kimi səciyyələnir. Sözün geniş mənasında siyasi təhlil siyasətlə bağlı olan elmi tədqiqatların hamısını ifadə etmək üçün istifadə oluna bilər, sözün dar mənasında isə xüsusi əhəmiyyət daşıyan tətbiqi elm sahəsidir. Siyasi təhlil konkret problemlərin öyrənilməsi tələblərinə başlıca maneə olan subyektivliyi və özbaşınalığı aradan qaldırmağa, onların daha məqbul həlli üçün fəaliyyətin müəyyən zəruri texnoloji vasitə və üsullarının axtarışını təcəssüm etdirir.

Siyasət nəzəriyyəsi siyasət haqqında indiki, müasir bilikdir. Siyasi təhlil isə konkret problemlərin tədqiqini mərkəzləşdirir, başqa sözlə, gerçəkliyin elə elementlərini birləşdirir ki, onlar siyasi məkanın müxtəlif sahələrinə toxunur. Bu, siyasi modernləşmə probleminin öyrənilməsinə də aiddir. Siyasi təhlil ictimai münasibətlərin təd-

qiq edilən sahələrinin qarşılıqlı əlaqəsini və qarşılıqlı asılılğını axtaran amillərdən fərqli olaraq obyektin, məsələn, modernləşmənin rasional – sadə başa düşülməsini işləyib hazırlayır və buna görə də tədqiqatçının konkret məqsədinin reallaşması üçün minimal kifayətləndirici məlumat tələb edir.

Fikrimizcə, siyasi modernləşmənin modellərini və mərhələlərini siyasi təhlil obyekti kimi nəzərdən keçirərkən siyasi təhlilin özünü daxili məntiqi mərhələlərə ayırmaq vacibdir, çünki bu mərhələlər idraki-tətbiqi fəaliyyətin uğurlarını qabaqcadan müəyyənləşdirir. Amerika alimləri C.B.Manheym və R.K.Riçin fikrincə, bu analitik prosesin başlıca mərhələlərinə aid etmək olar: problemin konseptuallaşdırılması mərhələsi; onun modelləşdirilməsi mərhələsi; konkret problemin tədqiqi proqramının tərtib edilməsi; onun tədqiqi metodlarının seçilməsi mərhələsi.[1]

Bütövlükdə modernləşmə problemini, ayrılıqda isə siyasi modernləşmənin modellərini və mərhələlərini siyasi təhlilin obyekti kimi tədqiq edərkən siyasi təhlilin həmin daxili məntiqi mərhələlərindən məqsədyönlü və rasional bəhrələnmək zəruri tədqiqatçılıq prinsipi kimi mənalanır.

Müasir politoloji ədəbiyyatda siyasi modernləşmənin bəzi modellərinin müəyyənləşdirilməsinə cəhd edilir. Model tədqiq edilən obyektin fikri, şərti surətidir, eləcə də proses və hadisələrin səciyyəvi cəhətlərinin simvolik formada təkrar istehsal üsuludur. Siyasi modernləşmənin tədqiqi ilə şərtlənən konseptual model isə özündə nəzəri-metodoloji yanaşmaları, tədqiqat problemlərini əks etdirən tədqiqatın strateji planıdır, anlayışlar aparatıdır.

Siyasi modernləşmə prosesində iki əsas məsələ diqqət mərkəzində saxlanılmalıdır. Bunlardan biri odur ki, cəmiyyətin digər sahələrinin dəyişikliklərdən geri qalması parçalanmaya, böhranın yaranmasına səbəb ola bilər. Digər bir təhlükə, onunla bağlıdır ki, sürətlə davam edən demokratikləşmə, vətəndaş cəmiyyətinin və siyasi mədəniyyətin mövcud səviyyəsinə uyğun gəlmədiyi üçün böhran vəziyyəti yarana və xaosla nəticələnə bilər. Müxtəlif ölkələrdə siya-

---

[1] Мангейм Дж.Б., Рич Р.К. Политология. Методы исследования: Пер. с англ. М., Вес Мир, 1997, s.68.

si modernləşmənin ilk mərhələlərində vəziyyət fərqli olur. Qərb ölkələrindəki mahiyyətcə təkamülə əsaslanan modernləşmə zamanı parlament təsisatlarının formalaşması bu prosesin bəzi ümumi qanunauyğunluqlarını üzə çıxarır. Bəzi ölkələrdə İngiltərə, İslandiyada sinfi hakimiyyətin ənənəvi qurumları əsasında parlament institutu tədricən formalaşmışdır. Qanunverici hökumət icraedici hökumətə münasibətdə öz imkanlarını və səlahiyyətlərini hakimiyyət bölgüsü ilə müəyyən olunmuş əsaslarda səmərəli tarazlıq əldə edənə qədər genişləndirir. Parlament təsisatlarının və onun formalaşması mexanizmlərinin tədrici, lakin dönməz demokratikləşməsi baş verir.

Siyasi modernləşmə modelinə dair müasir konseptual modellərdən biri S.Hantinqtona məxsusdur. O, modernləşmənin üç klassik modelini fərqləndirir: 1. Klassik xətti model (Böyük Britaniya, İsveç). 2. Dövri model (Latin Amerikası, Asiya və Afrikanın xeyli ölkələri). 3. Dialektik model (İspaniya, Portuqaliya, Yunanıstan).

Siyasi elmə aid ədəbiyyatda siyasi modernləşmənin modellərinin digər formaları da öz əksini tapmışdır.

Spesifik modernləşmə modellərindən biri islahatlara aid Çin modelidir. Çində modernləşmə və totalitar siyasi strukturların islahatlarına dair xüsusi model işlənib hazırlandı və bu model "yeni avtoritarizm" siyasəti adlandırıldı.

Ümumiyyətlə, siyasi modernləşmənin modelləri sistemində ən uğurlu model Skandinaviya modeli sayılır. Yüksək dəyərləndirilən bu model iqtisadi və siyasi moderləşmənin peralel həyata keçirilməsi üçün sürətli, gücləndirilmiş islahatlara zəmin yaratmışdır. Qeyd etmək lazımdır ki, Skandinaviya modeli məzmunu bazar münasibətləri sisteminin təşəkkül tapmasından ibarət olan nümayəndəli mənafelər sisteminin inkişafını formalaşdırdı.

Yürütdüyümüz mülahizələrlə bağlı belə qənaətə gəlmək olar ki, siyasi və iqtisadi islahatların optimal modeli hər bir ölkənin öz spesifikliyini və dünya təcrübəsini diqqətlə nəzərə alması sayəsində tapıla bilər. O, daha dinamik və humanist cəmiyyətin formalaşdırılması məqsədlərinə xidmət etmiş olar.

**Üçüncü fəsil** ***"Demokratik siyasi proses və cəmiyyətin siyasi modernləşməsi"*** adlanır. Dörd paraqrafı əhatə edən bu fəslin ***"Siyasi modernləşmə: məzmunu, xarakterik xüsusiyyətləri"***adlanan biri-

nci yarımfəslində siyasi modernləşmə anlayışının mahiyyəti, məzmunu, spesifik xüsusiyyətləri, siyasi proses anlayışı və onun siyasi modernləşmə ilə qarşılıqlı əlaqəsi məsələləri təhlil olunur.

Dünya siyasi elmində siyasi modernləşmə ümumi səviyyədə belə dəyərləndirilir: differensiallıq kəsb edən siyasi strukturun təşəkkülü; sosial qrupların və şəxsiyyətin siyasi həyata daim geniş cəlb edilməsi; rasional siyasi bürokratiyanın təşəkkülü və sürətli inkişafı; ənənəvi elitanın zəifləməsi və müasirləşən elita ilə əvəzlənməsi. Siyasi modernləşmə prosesinin ən əhəmiyyətli komponenti kimi avtoritarizmdən (totalitarzmdən) demokratiyaya keçid (demokratik tranzit) çıxış edir.[1]

Siyasi modernləşmə barədə mövcud olan müxtəlif fikirlərin müqayisəli təhlili kontekstində siyasi modernləşmənin məzmununu belə müəyyənləşdirmək olar: siyasi modernləşmə müasir siyasi təsisatların, siyasi praktikanın və eləcə də siyasi strukturların formalaşması, inkişafı və yayılması kimi səciyyələnir. Müasir siyasi təsisatları və siyasi praktikanı heç də yalnız inkişaf etmiş demokratik ölkələrin siyasi təsisatlarının və praktikalarının sürəti kimi başa düşmək düzgün olmazdı, məhz elə siyasi təsisatları və praktikanı təsəvvür etmək vacibdir ki, modernləşmənin çağırışı ilə dəyişilən şəraitə siyasi sistemin adekvat reaksiyasını və uyğunlaşmasını təmin etməyə qadir olsun.

Fikrimizcə, həmin təsisatlar və praktikalar müasir demokratik təsisatlar modelinə uyğun gələ bilər və yaxud, müxtəlif dərəcədə fərqlənə bilər. Buna görə obyektiv olaraq bir tərəfdən, bütövlükdə, ictimai inkişafın ən əhəmiyyətli şərti kimi siyasi sabitliyi qoruyub saxlamaq, digər tərəfdən, siyasi iştirakçılığın imkanlarını və formalarını, islahatların kütləvi bazasını genişləndirmək zəruridir.

İctimai həyatın demokratikləşməsi, aşkarlıq, neqativ hallara qarşı mübarizənin güclənməsi, sağlam ictimai mühitin bərqərar olması, vətəndaşların sosial fəallığının yüksəlməsi və digər pozitiv dəyişikliklər modernləşmənin uğurlu cəhətləri kimi çıxış edir.

Cəmiyyətin siyasi modernləşməsi siyasi proseslə də sıx bağlıdır. Siyasi prosesdə cəmiyyətin, onun siyasi sisteminin keyfiyyətli

---

[1]Мелвиль А.Ю. Демократические транзиты. М., Юнити, 1999, s.40-43.

inkişafı, dinamikası və modernləşməsi təzahür edir. Siyasi proses cəmiyyətin siyasi sisteminin bir vəziyyətdən digərinə transformasiyası kimi başa düşülür. Vurğulamaq vacibdir ki, bütövlükdə siyasi proses siyasi sistemin hərəkətini, dinamikasını, təkamülünü açıqlayır, zaman və məkan etibarilə onun vəziyyətinin dəyişməsini üzə çıxarır. Bütün bunlar isə bütövlükdə cəmiyyətin siyasi modernləşməsinin məzmununa, xarakterik xüsusiyyətlərinə pozitiv təsir göstərir. Siyasi proses hər şeydən əvvəl, başlıca siyasi qərarları qəbul edən və hakimiyyətdə qərarlaşan qüvvələr vasitəsilə formalaşır və istiqamətlənir.[1]

Qeyd etmək lazımdır ki, siyasi modernləşməni şərtləndirən və əks etdirən çox vacib dəyərlərdən biri dövlətçiliyin daha da təkmilləşməsi və bu prosesdə yeni siyasi reallıqların təzahürüdür. Həmin reallıqlardan biri məhz hüquqi dövlətin formalaşmasıdır. Əlbəttə, hüquqi dövlətin siyasi reallıq kimi bərqərar olması heç də dövlətçiliyin tarixi təkamülünün "başa çatması" kimi təsəvvür edilməməlidir. Unutmaq olmaz ki, humanist dəyərlərin təntənəli surətdə elan olunmasına baxmayaraq, real sosial və siyasi dinamika bir sıra tarixi məhdudlaşmalar, mühüm ziddiyyətlər və hətta, hüquqi dövlətin əsasını təşkil edən müəyyən norma və prinsiplərin reallaşdırılmasının qeyri-mümkünlüyünü üzə çıxartmışdır.

Lakin hüquqi dövlət özünün formalaşması və qərarlaşması prosesində nəinki fərdi azadlığın və hüququn qanunvericiliklə təmin olunmasını işləyib və möhkəmlədib, eləcə də vətəndaş cəmiyyətinin normal mövcudluğu və fəaliyyəti, onun başlıca təsisatları, prinsipləri və dəyərləri üçün başlıca təminat yaradıb.

Üçüncü fəslin ***"Cəmiyyətin siyasi modernləşməsi siyasi inkişaf kontekstində"***adlanan ikinci yarımfəslində qeyd olunur ki, ölkələrin transformasiya şəraitində siyasi inkişafı problemi daha çox modernləşmə nəzəriyyəsində nəzərə çarpır. Bu nəzəriyyə ənənəvi dövlətlərin geridə qalmasının aradan qaldırılması dinamikasını açıqlayan müxtəlif sxem və modellərin təhlilinin məcmuu kimi səciyyələnir. Bu konsepsiyanın nəzəri əsası C.Lokkun, A.Smitin ideya irsində və

---

[1] Решетников С.В. Системный подход как методология анализа публичной политики / С.В.Решетников, Н.А.Антанович. Мн., ИСПИ. 2000, с.69.

eləcə də "inkişaf sosiologiyası"nın banilərinin əsərlərində əksini tapmışdır.

Siyasi dəyişikliklərin mənbəyini, xarakterini və istiqamətlərini üzə çıxarmaq cəhdi XX əsrin 50-ci illərində Qərb politologiyasında "siyasi inkişaf", "siyasi inkişaf nəzəriyyəsi" anlayışlarının geniş yayılmasına gətirib çıxartdı.

Qeyd etmək vacibdir ki, siyasi inkişaf cəmiyyətin siyasi sferasında elə dəyişiklikləri səciyyələndirir ki, o, siyasi sistemin yeniləşməsini, onun daxili strukturu və funksiyasının əhəmiyyətli transformasiyasını təcəssüm etdirir. Bu dəyişiklik siyasi sferanın yeni keyfiyyət halının üzə çıxması ilə bağlıdır.

Siyasi inkişaf çoxölçülü proses olmaqla, onun gedişində müxtəlif siyasi qüvvələrin qarşılıqlı fəaliyyəti nəticəsində siyasi davranışlar üzə çıxır, siyasi mədəniyyətdə, cəmiyyətin siyasi sisteminin özündə dəyişikliklər baş verir. Əlbəttə, siyasi inkişafı siyasi tərəqqi, ümumiyyətlə isə tərəqqi ilə eyniləşdirmək olmaz. Siyasi inkişaf nəticənin yox, prosesin təcəssümünü ehtiva edir. Siyasi tərəqqi isə müəyyən siyasi nailiyyətlərin əldə olunmasını səciyyələndirir.

Siyasi inkişaf problemini araşdırarkən onun əsas determinantlarını, siyasi sferaya nəinki daxili iqtisadi, sosial, mənəvi, ideoloji, həmçinin dünyada gedən proseslərin təsirini nəzərə almaq vacibdir. Siyasi inkişaf qeyri-siyasi ictimai sistemlərin təkrar istehsalına aid edilə bilməz. Mövcud siyasi nəzəriyyələr kompleksinin sadalanmasına ehtiyac olmadığını vurğulamaqla yanaşı, qeyd etmək vacibdir ki, hər bir nəzəri yanaşma yalnız milli spesifikanın özəlliklərindən çıxış edilməklə təhlil və tətbiq edilə bilər.

Hər bir ölkənin yaranma tarixi müxtəlif zamanda olduğu kimi onların inkişaf yolları da eyni ola bilməz. Azərbaycanın inkişaf yolunu təhlil edərkən bu yanaşmaların hər ikisindən istifadə etmək lazım gəlir. Türkiyə və bir sıra islam ölkələrində endogen-ekzogen, yəni həm ölkə daxilində olan əsaslara dayanan, həm də xaricdən mənimsənilmiş təcrübə əsasında modernləşmə həyata keçirilir. Azərbaycanda həyata keçirilən modernləşmə xəttinin də bu ölkələrin keçdiyi modernləşmə yoluna uyğunluğunu təhlil əsasında müəyyən etmək olur.

Azərbaycan üçün hansı siyasi transformasiya nəzəriyyəsini tət-

biq etmək olar sualına cavab axtararkən da belə bir qənaətə gəlmək olar ki, hətta, Qərbə daha yaxın hesab edilən postkommunist sovet və Şərqi Avropa ölkələri - Estoniya, Çexiya ölkələri də ümumi bir nəzəriyyədə izah edilə bilməz.

Siyasi inkişafla bağlı XX əsrin 50-ci illərindən etibarən modernləşmə nəzəriyyəsi geniş yayılmağa başladı. Qərb siyasi elmində təşəkkül tapan həmin nəzəriyyənin görkəmli nümayəndələri Q.Almond, D.Apter, S.Verter, L.Pay və digərləri sayılır. Siyasi modernləşmə nəzəriyyəsində əsasən siyasi inkişafın sosial şəraiti və ilk öncə, sosial səfərbərlik problemi vurğulanır. Siyasi prosesin gedişində siyasi sistemin bu və ya digər elementi təkrar oluna bilər, aradan qalxır və yarana bilər. Modernləşmə nəzəriyyəsinin nümayəndələri sosial təkamül nəzəriyyəsi tərəfdarlarından fərqli olaraq bildirirlər ki, inkişaf prosesi məhz siyasi və intellektual elita tərəfindən istiqamətlənir, bu proses müasir sosiumda yalnız həmin elitanın nəzarətində təzahür edir.

Cəmiyyətin demokratik siyasi inkişafı üçün və islahatların aparılması mqsədilə optimal variant o zaman təşəkkül tapır ki, elitanın sıravi vətəndaşlar üzərində üstünlüyü mövcuddur. Əlbəttə, cəmiyyətin modernləşməsi demokratik siyasi təsisatların səviyyəsindən daha çox, onların möhkəmliyi və mütəşəkkilliyi ilə bağlıdır.

Yürüdülən mülahizələri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, siyasi modernləşməni səciyyələndirən siyasi dəyişikliklər siyasi reallığın yeni xüsusiyyətinin təşəkkül prosesi kimi əvvəlki qaydalar çərçivəsində müxtəlif yollarla və müxtəlif sürətlə həyata keçirilir. Lakin son nəticə ondan ibarətdir ki, bütövlükdə siyasi sistem əvəzlənməyə məruz qalır. Bu proses bir neçə təkamüllü alternativlərə malik olmaqla, seçimi ona təsir göstərən amillərin konkret məcmuundan asılıdır.

Üçüncü fəslin üçüncü yarımfəsli ***"Demokratik siyasi sistemin xüsusiyyətləri kontekstində modernləşmənin istiqamətləri"***adlanır. Burada bütövlükdə siyasi sistem və ayrılıqda demokratik sistem anlayışlarına aydınlıq gətirilir, demokratik siyasi sistemin məzmununu təşkil edən xüsusiyyətlər və onun modernləşməsi istiqamətləri araşdırılır.

Siyasi sistem müasir siyasi elmin modernləşməni həyata keçir-

məyə imkan yaradan inteqrativ kateqoriyasıdır. Ümumi sistem nəzəriyyəsinin əsası alman bioloqu Lüdviq fon Bertalanfi tərəfindən qoyulmuşdur. "Sistem" terminini də elmi dövriyyəyə 1920-ci ildə məhz o bəxş etmişdir. Bertalanfi sistemi qarşılıqlı əlaqədə olan elementlərin kompleksi kimi müəyyənləşdirmişdir.[1]

Bütöv sistemin, eləcə də yarımsistemlərin təşəkkülü gedişində nəinki, yeni keyfiyyətlər yaranır və başlıca komponentlərin xassə və xüsusiyyətləri dəyişikliyə məruz qalır, həmçinin bütöv sistemin təzahürünə qədər mövcud olmayan yeni hissələr və keyfiyyətlər təşəkkül tapır.

Siyasi sistemin modernləşməsinə etibarlı təminat məhz demokratik siyasi quruluş sayəsində reallaşır. Demokratik siyasi sistemin konkret variantlarının seçimi xeyli amillərdən: tarixi ənənələrin xarakterindən və tarixi təcrübədən (siyasi sistemin modernləşməsi üçün zəruri olan), ölkənin maddi və mənəvi imkanlarından, siyasi qüvvələrin nisbətindən, vətəndaşların siyasi şüurunun vəziyyətindən və cəmiyyətin siyasi mədəniyyətinin tipindən, idarə edən elitanın müəyyənedici cəhdlərindən asılıdır.

Modernləşmiş demokratik siyasi sistemin mahiyyətli sabitliyinin müvafiq meyarlarına aid etmək olar: siyasi sistemin struktur differensiyası (makro, mezo, mikro); siyasi sistemin demokratik təkrar istehsal qabiliyyəti; onun tarazlıq meyili.

Vurğulamaq vacibdir ki, demokratik siyasi sistemin mahiyyətinin açıqlanması kontekstində onun modernləşməsinin istiqamətlərini müəyyənləşdirib təhlil etmək də tədqiqat işinin başlıca vəzifələrindəndir. Bu mənada demokratik siyasi sistemin modernləşməsinin istiqamətlərinə aid etmək olar: dövlətçiliyin təkamül prosesinin xüsusi göstəricisi kimi səciyyələnən hüquqi dövlətin formalaşması, dövlət və cəmiyyətin, dövlət və vətəndaşın qarşılıqlı fəaliyyət sisteminin təkmilləşdirilməsi, sosial dövlətin təşəkkülü və inkişafı, dövlətin yeni tipli sosial siyasəti, müasir səviyyədə sosial idarəetmə və idarəetmə, müasirləşmənin təbiəti ilə şərtlənən siyasi qərarların qəbulu, icrası və digərləri.

---

[1] Берталанфи Л. Общая теория систем – критический обзор / Исследования по общей теории систем. М., Прогресс, 1969, s.23.

Fikrimizcə, demokratik siyasi sistemin modernləşməsinin istiqamətlərinin təhlili baxımdan ilk öncə, dövlətin inkişafının modern meyillərinin konkret aydınlaşdırılması çox vacibdir. Müasir dövlətin inkişafında iki xüsusi meyil müşahidə olunur: deetatik və etatik. Birinci meyilin mahiyyəti ondan ibarətdir ki, vətəndaş cəmiyyəti fəallaşır, dövlət üzərində nəzarəti güclənir, ona siyasi partiyaların və maraq qruplarının təsir dairəsi genişlənir, vətəndaş cəmiyyətinin bəzi orqanlarının fəaliyyətində özünüidarə başlanğıcı güclənir.

İkinci – etatik meyildə isə cəmiyyətin tənzimləyici və inteqrasiyaedici vasitəsi kimi çıxış edən dövlətin rolunun artması təzahür edir. Müasir dövlət iqtisadi, sosial və informasiya proseslərinə fəal müdaxilə edir, vergi, investisiya, kredit siyasəti və digər sahələr üzrə siyasətlə istehsalın inkişafını stimullaşdırır, xalq təsərrüfatında nəzərə çarpan uyğunsuzluğu aradan qaldırır. Dövlətin fəaliyyətində ictimai inkişafın strategiyasını və planlaşdırılmasını işləyib hazırlamaq daha əhəmiyyətli yer tutur.

Demokratik siyasi sistemin modernləşməsinin əhəmiyyətli istiqamətlərindən digəri sosial dövlətin təşəkkülü və inkişafıdır. Bu, dövlətin modern mahiyyətinin spesifik ifadəsidir. Sosial dövləti fərqləndirən cəhətlərdən biri ondan ibarətdir ki, o, siyasi və ideoloji ritorikadan istifadə edərək, son onilliklərdə ciddi siyasi nəzəriyyənin anlayışlar aparatına nüfuz etmişdir.

Bu fəslin dördüncü yarımfəsli ***"Qloballaşmanın sosial-siyasi aspekti və modernləşmə problemi"***adlanır. Paraqrafda vurğulanır ki, XX əsrin ikinci yarısında bəşəriyyət elə problemlərlə üzləşdi ki, bu, sivilizasiyanın, bütün xalqların mənafeyinin ən dərin əsaslarına toxunur.

Qlobal problemlər müasir dünyanın sosial, iqtisadi, siyasi ziddiyyətləri ilə üzvi əlaqə kəsb etməklə və qovuşmaqla müxtəlif siniflərin, sosial qrupların, siyasi partiyaların, ictimai hərəkatların və b. maraqlarına toxunur. Onlar aydın şəkildə siyasi çalarlar ifadə edir və bunların həlli daha çox siyasi sferaya istiqamətlənir, bir sözlə, qlobal problemlər sosial-siyasi aspekt kəsb edir.[1]

---

[1] Yashar D. Globalization and Collective Action // Comparative Politics/ 2002, v.34, N3, 343 p.

Tədqiqatçılar qloballaşmanı müxtəlif tarixi zaman kəsiyindən hesablayırlar. Bəzi müəlliflər, məsələn, M. Uoters hesab edir ki, qloballaşma modernləşmə ilə müqayisə olunmalıdır, bu baxımdan onun başlanğıcı XVI əsrə aid edilə bilər.

H.Lentner əminliklə bildirir ki, qloballaşma XIX əsrin sonundan müasir industriyanın, nəqliyyat və kommunikasiyanın yeni texnologiyalarının inkişafı, beynəlxalq əmtəə mübadiləsinin inkişafı və kapital axını və müasir tipli miqrasiyadan başlanmışdır.

Ümumiyyətlə, qloballaşma nəzəriyyəsinin işlənib hazırlanmasında E.Qiddens, M.Uoters, R.Robertson, H.Hondker və başqaları böyük rol oynamışlar. Qloballaşma konsepsiyasının formalaşmasına İ.Vallerstaynın dünya sistemi yanaşması müəyyən töhfə bəxş etmişdir. Onun elmi təhlilinin başlıca obyekti dünyanı vahid bütövlük kimi açıqlaması olmuşdur ki, bu da qloballaşmaya ölkə və region çərçivəsindən kənarda diqqət yetirilməsini nəzərdə tutur.

Müasir dövrün qlobal problemləri bəşəriyyətin indiki inkişaf mərhələsi üçün nə isə yeni hadisə deyildir, məhz əvvəllər "insan-cəmiyyət-təbiət" sistemində mövcud olan ziddiyyətlərin hazırki şəraitdə görünməmiş dərəcədə kəskinləşməsi və dərinləşməsi kimi səciyyələnir. Bu baxımdan fikrimizcə, onların hərtərəfli təhlili üçün elə səbəblərin aydınlaşdırılması zəruridir ki, məhz bu problemlərin aktuallaşmasına imkan yaratsın.

Bütün qlobal problemlər bir-birini qarşılıqlı şərtləndirən əlaqəyə malikdir. Hər bir qlobal problem öz-özünə yox, məhz qlobal problemlərin bütün sisteminin "elementi" kimi çıxış edir. Müasir dövrün qlobal problemlərinin sistemli xarakteri onların kompleks tədqiqini tələb edir.

Dünya elmi ədəbiyyatında qloballaşma fenomeninə müxtəlif yanaşmalar mövcuddur: qloballaşma dünya bazarı kimi, əlaqələndirici kimi, modernləşmə və "detraditsionalizm" kimi, homogenləşmə və ya hibridləşmə kimi. Əlbəttə, həmin yanaşmalar nə qədər müxtəlif məntiqi zəminə əsaslanırsa, bir o qədər də müəyyən mövcud aspektlərin göstəricisi kimi nəzərdən keçirilməlidir.

Qloballaşmanın sosial-siyasi aspektindən çıxış edərək belə qənaətə gəlmək olar: birincisi, hər bir qlobal siyasi problem insan, cəmiyyət və təbiətin qarşılıqlı münasibəti qovuşuğunda təşəkkül tap-

mışdır. İkincisi, müasir dünyanın inkişaf dinamikası və təcrübəsi aydın şəkildə göstərir ki, qlobal siyasi problemlərin hamısı qarşılıqlı əlaqə və təsiri ilə təzahür edir. Nəhayət, qlobal siyasi problemlərin uğurlu həlli bütün üsul və vasitələrin, hər şeydən əvvəl isə intellektual, əmək və maddi ehtiyatların birləşdirilməsini həyati zərurətə və tələbata çevirir. Bu reallıq bəşəriyyətin taleyi naminə dövlətlərarası qarşılıqlı inam hissini və əməkdaşlığı bundan sonra daha da gücləndirməlidir. Unutmaq olmaz ki, qloballaşan dünyada modernləşmə faktiki olaraq siyasi məkanın öyrənilməsinin dominant texnologiyası kimi çıxış edir.

***"Azərbaycan Respublikasının demokratikləşməsi prosesində cəmiyyətin siyasi modernləşməsi"*****adlanan dördüncü fəsil** üç yarımfəsli əhatə edir. Fəslin ***"Azərbaycan Respublikasında demokratik siyasi və iqtisadi sistemin formalaşması və modernləşməsi"***adlanan birinci yarımfəslində Azərbaycanda demokratik tipli yeni siyasi qaydaların təşəkkülü zəmininin və mexanizminin əsaslandırılması vurğulanır, yeni iqtisadi sistemin, milli iqtisadiyyatın formalaşması və modernləşməsi məsələsinə aydınlıq gətirilir.

Hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Azərbaycan Respublikasında müstəqil şəkildə formalaşan və fəaliyyət göstərən üç hakimiyyət qolu qərarlaşmışdır: qanunverici hakimiyyət səlahiyyətlərini həyata keçirən Milli Məclis, icra hakimiyyətini həyata keçirən prezident və məhkəmə hakimiyyəti. Məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının apellyasiya məhkəmələri, Azərbaycan Respublikasının ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər. Dövlət hakimiyyətinin həyata keçirilməsi formasına görə Azərbaycanda prezident idarəçiliyi qərarlaşmışdır.

Azərbaycan Respublikasının siyasi sistemini səciyyələndirən mühüm xüsusiyyətlərdən biri çoxpartiyalılıq, müxtəlif ictimai birliklərin, siyasi hərəkatların formalaşması və azad fəaliyyətidir.

Azərbaycan Respublikasının demokratik siyasi sisteminin formalaşmasının əhəmiyyətli istiqamətlərindən biri məhz partiyalaşma prosesinin sürətli və əhatəli təzahürüdür, eləcə də partiya sisteminin təşəkkülü və inkişafıdır. Hazırda respublikamızda 62 partiya rəsmi

olaraq qeydiyyatdan keçmişdir.

Hakim Yeni Azərbaycan Partiyası öz sıralarında 760 mindən artıq üzvləri birləşdirir. Bu əhəmiyyətli siyasi hadisə və dəyişikliklər ölkəmizdə nəinki demokratik siyasi sistemin qərarlaşmasını, eləcə də onun modernləşməsini əyani əks etdirən məqamlardandır.

Azərbaycan Respublikasının yeni siyasi sisteminin modernləşməsi sistemində dövlət hakimiyyətinin modernləşməsi problemi çox əhəmiyyətli yer tutur. Bununla bağlı vurğulamaq vacibdir ki, müasir dünyada həyata keçirilən milli modernləşmələrin nəticələri birmənalı deyildir, istər-istəməz qloballaşma çox vaxt xeyli sosial, iqtisadi və siyasi proseslərin qeyri-sabitliyinə səbəb olur.

Azərbaycan Respublikasında demokratik siyasi sistemlə yanaşı yeni iqtisadi sistemin, milli iqtisadiyyatın formalaşması və modernləşməsi cəmiyyətimizin transformasiya mərhələsinin obyektiv qanunauyğunluğudur. Azərbaycanda islahatların aparılması şəraitində prinsip etibarilə yeni sosial-iqtisadi situasiya təşəkkül tapdı. İqtisadiyyatın idarə edilməsində inzibati-amirlik sisteminin ləğv edilməsi və bazar iqtisadiyyatı elementlərinin – bank və ticarət infrastrukturunun yaradılması, əmtəə qıtlığının aradan qaldırlıması, qiymətlərin sürətlə artmasının qarşısının alınması və digər tədbirlər yeni sosial-iqtisadi situasiyanın təzahürünün aydın ifadəsidir. Yeni iqtisadi sistemin yaradılması prosesində Azərbaycanda iqtisadi modernləşməyə real imkan yaradan islahatlar həyata keçirilir.

İqtisadi sistemin formalaşmasının və iqtisadiyyatda modernləşmənin vacib şərti bazar münasibətlərinin formalaşmasıdır. İqtisadiyyatda modernləşmənin həlledici şərti isə investisiya qoyuluşudur. Yeni iqtisadi sistemin formalaşması və modernləşməsinin mühüm istiqamətlərindən digəri isə Azərbaycanda kütləvi özəlləşmənin həyata keçirilməsidir. Özəlləşmə ölkəmizdə əhalinin geniş təbəqəsinin sahibkarlığa cəlb olunmasına imkan yaratmışdır. Prezident İlham Əliyevin fərmanı ilə təsdiqlənmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva etməklə inkişafın keyfiyyətcə yeni modelini formalaşdırır.

Ölkəmizin gələcəkdə yüksək səmərəli iqtisadi potensialının yaradılması aşağıdakı strategiyaya əsaslanmalıdır:

- dövlət mülkiyyətinin özəlləşdirilməsinin reallaşması mexanizmi hüquqi və iqtisadi baxımdan təmin edilməli, bununla bağlı qabaqcıl ölkələrin təcrübəsindən düzgün, səmərəli və məqsədyönlü istifadə olunmalıdır;

- islahatların sosial indikatorları, göstəriciləri müəyyənləşdirilməli, təminatlı yaşayış minimumu, məşğulluq həddi, eləcə də təhsil, səhiyyə sahəsinə, elmə ayrılan vəsaitin ümumi milli məhsulda minimal payı təmin edilməlidir;

- ölkənin iqtisadi inkişafı sosial inkişafla sıx əlaqələndirilməli, iqtisadiyyatın idarə olunması müasir dövrün tələblərinə uyğun olaraq yenidən təşkil edilməlidir.

Dördüncü fəslin ***"Azərbaycan cəmiyyətində siyasi modernləşmənin mahiyyəti və səciyyəvi xüsusiyyətləri"***adlanan ikinci yarımfəslində Azərbaycanda modernləşmənin tarixi, onun dövlətçiliyin təkamülü gedişində, ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid prosesində baş verdiyi açıqlanır və bununla bağlı dövlətçiliyin inkiaşfının müxtəlif mərhələlərinin spesifik xüsisiyyətləri araşdırılır.

XX əsrin 90-cı illərinin başlanğıcında yenidən müstəqil Azərbaycan dövlətinin yaradılmasından sonra ölkəmizin siyasi həyatında modernləşmə üçün geniş əlverişli şərait və imkanlar yaranmışdır. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlətin təməli qoyulmuş, ilk demokratik Konstitusiya qəbul edilmiş, hakimiyyət bölgüsü prinsipi əsasında hüquq normaları dünya standartlarına uyğunlaşdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi və iqtisadi dəyişikliklərin paralel surətdə həyata keçirilməsinin vacibliyi barədə vurğuladığı fikir respublikamızın siyasi modernləşməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Akademik R.Mehdiyev yazır: "...Hər bir sahədə islahatlar bir-birini tamamlamalı, dövlətin və cəmiyyətin gələcək inkişafına şərait yaratmalı, bu prosesə yeni təkan verilməlidir. Islahatlar Azərbaycan sosiumunun ümumi transformasiyası üçün stimul olmalıdır. Qlobal proseslərin getdiyi, bütünlükdə dövlətə, sosiuma və fərdə münasibətin dəyişdiyi dövrdə bu məsələ daha da aktuallaşır".[1]

---

[1] Mehdiyev R. Azərbaycan: 2003-2008. Zaman haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2008, 240 s.

Modernləşmənin avtoritar metodları demokratik effektivlik yarada bilməz. Bu baxımdan respublikamızda əvvəlki rejimdən miras qalan belə metodların aradan qaldırılması istiqamətində görülən tədbirlər modernləşmənin demokratik metodları və qaydalarının təşəkkülü və formalaşmasına zəmin yaradır. Bu, cəmiyyətimizdə sosial-siyasi informasiyanın uğurlu məqamlarından biri hesab edilməlidir.

Azərbaycan cəmiyyətində siyasi modernləşmə hələ XX əsrin 80-ci illərinin sonlarında xüsusi mülkiyyətin və bazar iqtisadiyyatının olmadığı şəraitdə başlanmışdır. Lakin ölkəmizdə siyasi modernləşmə 2000-ci ilin başlanğıcından daha əlverişli şəraitdə, başqa sözlə sabit iqtisadi inkişaf, siyasi sabitlik, həyat səviyyəsinin yüksəlməsi gedişində həyata keçirilir.

Transformasiya dəyişikliklərini həyata keçirən Azərbaycan cəmiyyəti meydana çıxan problemləri özünəməxsus həll edir, zamanın çağırışına çevik və tam cavab verir. Eyni zamanda aparılan islahatların xarakteri və sürəti cəmiyyətin modernləşmə ziddiyyətlərini həll etməsindən asılıdır.

Azərbaycanın siyasi modernləşməsi ikili xarakterdə təzahür edir: bir tərəfdən, siyasi həyata cəmiyyətin müxtəlif qruplarının və təbəqələrinin geniş cəlb edilməsi aydın nəzərə çarpır, digər tərəfdən, ölkədə modernləşmənin metodları sivil, demokratik xarakter daşıyır. Cəmiyyətdə siyasi dialoq mühiti tam formalaşıb. Ümummilli məsələlərdə vahid platformadan çıxış edilib və bu əməkdaşlıq həqiqətən də ölkəyə çox böyük fayda gətirib. Ölkəmizin gələcək siyasi sistemi üçün onun təkmilləşməsi və səmərli işləməsi üçün bunun böyük əhəmiyyəti var.

Dördüncü fəslin üçüncü yarımfəsli ***"Azərbaycanın modernləşməsi siyasi-mənəvi dəyərlər kontekstində"***adlanır. Burada qeyd edilir ki, şəxsiyyətin və cəmiyyətin fəaliyyətinin daha mükəmməl səviyyədə mədəniyyət sferası ilə tənzimlənməsi dəyərlər sistemi vasitəsilə həyata keçirilir.

Dəyər anlayışı öz-özlüyündə reallığın predmetini deyil, məhz onlara münasibəti təcəssüm etdirir. Siyasi dəyərlər həmişə dövlət tərəfindən yaradılan və müdafiə edilən qaydalarla bağlı olur.

Müasir dünyanın başlıca siyasi dəyərlərinə aid edilir: siyasi azadlıqlar, bərabərlik, ədalət, insan hüququ, demokratiya, siyasi plüralizm, tolerantlıq, siyasi tərbiyə, vətəndaşlıq, vətənpərvərlikvə başqa-

ları.[1]

Vətəndaşların siyasi hüquq və azadlıqlarının dövlət tərəfindən həyata keçirilməsi məntiqi olaraq indiki və strateji modernləşməyə istiqamətlənən siyasi davranış kimi dəyərlənir. Bu istiqamətdə cəmiyyətimizdə həyata keçirilən siyasi xarakterli ciddi dəyişikliklər çox önəmlidir.

Müstəqillik dövründə Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi üçün islahatlar həyata keçirilmiş və milli qanunvericilik beynəlxalq standartlarına uyğunlaşdırılmışdır. Azərbaycan dövləti müstəqillik haqqında Konstitusiya aktında "Ümumdünya insan hüquqları Bəyannaməsi"ni tanıdığını elan etmiş və müxtəlif beynəlxalq sazişlərə qoşulmuşdur. 1993-2003-cü illərdə 30-dan artıq beynəlxalq konvensiyaya qoşulmaq məqsədilə Milli Məclis insan hüquq və azadlıqları ilə bağlı 20-dən artıq qanun qəbul etmişdir.

22 fevral 1998-ci ildə Prezident Heydər Əliyevin "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" imzaladığı Fərmanda müstəqillik dövründə Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunu seçdiyi qeyd edilmiş, 80-ci illərin sonu və 90-cı illərin başlanğıcında Ermənistanın hərbi təcavüzü nəticəsində insan hüquqlarının kütləvi pozulmasına səbəb olan hallara və faktlara siyasi qiymət verilmişdir.

Bir sözlə, bütün qəbul edilən dövlət və qanunvericilik sənədləri modernləşmənin məzmununu təşkil edən vətəndaşların siyasi fəaliyyətinin, vətəndaş mədəniyyətinin yüksəlməsinə istiqamətlənir, eləcə də siyasi və iqtisadi baxımdan modernləşməyə ciddi təsir göstərən siyasi sosiallaşma prosesinin sürətlənməsini nəzərdə tutur. Bunlarsız cəmiyyətin modernləşməsi və ya demokratikləşməsi kursu tam başa çata bilməz. Çünki, modernləşmə nəinki siyasi və iqtisadi cəhətdən cəmiyyət üzvlərinin fəallığından asılıdır, eləcə də siyasi strukturların rasional və məqsədyönlü fəaliyyəti ilə şərtlənir. Siyasi həyatın mürəkkəbləşməsi, insanların azadlıq, bərabərlik və demokratiya ideallarını həyata keçirmək tələbatı cəmiyyətin modernləşmə-

---

[1]МангеймДж.Б., РичР.К. Политология. Методы исследования: Пер. с англ. М., Весь мир, 1997, с. 333.

sinin qanunauyğunluğudur.

Vətəndaşlar elə sosial və siyasi təsisatlara inam hissi bildirirlər ki, məhz onlara pozitiv təsir göstərirlər. Heç də təsadüfi deyil ki, rəyi soruşulanların modernləşmə baxımdan arzuladığı cəmiyyət demokratik Qərb cəmiyyəti ilə əlaqələndirilir. Belə qənaətə gəlmək olar ki, demokratik Azərbaycan cəmiyyətində vətəndaşların müəyyən hissəsi daha çox Qərb modernləşməsinə maraq göstərirlər, ölkəmizdə modernləşmənin milli dəyərlərlə sintezdə siyasi dəyərlər kontekstində həyata keçirilməsinə üstünlük verirlər.

Modernləşmə yalnız siyasi dəyərlər sayəsində deyil, eləcə də digər mənəvi amillərin təsiri nəticəsində reallaşan fenomen kimi səciyyələnir. Cəmiyyətdə baş verən dəyişiklik modernləşməyə məruz qalmaqla sosial tənzimləmə prinsiplərinin fəaliyyət sferasını genişləndirir. Mədəniyyət cəmiyyətin bütün mənəvi həyatının vahid - bütöv sistemidir. Insanların fəaliyyətinin bütün növləri nəticə etibarilə, maddi və mənəvi dəyərlərin yaradılmasına istiqamətlənir.

Cəmiyyət elmdə, təhsildə, mənəvi həyatın bütün sferalarında cəmlənmiş, intellektual, mənəvi potensialı hər vasitə ilə fəallaşdırmadan ictimai həyatın yeniləşməsi və modernləşməsi qeyri-mümkündür. Cəmiyyətimizdə modernləşmənin ahəngdar şəkildə həyata keçirilməsi, başqa sözlə, siyasi, iqtisadi və mənəvi sferalarda aparılan ciddi islahatların əlaqələndirilməsi Azərbaycanın mükəmməl səviyyədə modernləşməsinə real əlverişli şərait və imkanlar yaradır. Ümumiyyətlə, bu, dünyəvi prosesin uğurla reallaşmasında xüsusi mənəvi həyat hadisəsi kimi səciyyələnən təhsil əhəmiyyətli rol oynayır.

Azərbaycanın yeni təhsil sistemi milli mənəvi dəyərlərimizdən bəhrələnməli və gənc nəslin sosial təfəkkürünün formalaşmasında həlledici rol oynamalıdır. Sözün geniş mənasında təhsilin məqsədi təbiətin, cəmiyyətin, insan idrakının və davranışının qanunları haqqında elmi bilikləri yaymaq və mənimsətməkdən ibarətdir. Təhsilin, elmin daha da inkişaf etdirilməsi Azərbaycanda siyasi modernləşmə prosesinin qəti tələbidir. Siyasi və mənəvi dəyərləri mənimsəməkdən kənarda modernləşmə təsəvvürə sığan deyil.

Dissertasiyanın ***Nəticə*** hissəsində tədqiqat yekunlaşdırılır, ümumiləşdirilmələr aparılmaqla problemin öyrənilməsi prosesində gəli-

nən son nəticələr təqdim olunur, bunların əsasında nəzəri və praktiki əhəmiyyət daşıyan tövsiyələr və təkliflər irəli sürülür.

Müəllif belə qənaətə gəlir ki, ümumi modernləşmə anlayışı ictimai həyatın bütün sferalarında baş verən dəyişiklikləri əhatə edir, sənayeləşmə bazasında ictimai proseslərin və dəyişikliklərin qarşılıqlı şərtlənməsini əks etdirir. Azərbaycanın 44 günlük Vətən müharibəsində tarixi ədaləti bərpa edərək Ermənistanın 30 il ərzində işğal altında saxladığı torpaqları azad etməklə həm BMT qətnamələrini özü həyata keçirdi, həm də yeni siyasi-iqtisadi situasiya yaratdı. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, müharibənin əsas nəticələrindən biri Cənubi Qafqazda yeni təhlükəsizlik formatının yaradılmasından ibarət oldu. Geosiyasi proseslər fonunda müharibənin indiki nəticələri Azərbaycanın yalnız iqtisadi, siaysi, hərbi üstünlüyünün məntiqi davamı kimi qiymətləndirilmir, həm də fəal, ardıcıl, praqmatik xarici siyasət strategiyasının uğuru kimi xarakterizə olunur. Artıq işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərin start verilib, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları həyata keçirilir. Bu konsepsiya işğaldan azad olunan ərzilərin iqtisadi dövriyyəyə cəlb olunmasına səbəb olmaqla iqtisadiyyatımızın daha da genişlənməsinə imkan yaradacaq.

Beləliklə, müxtəlif ölkələrdə modernləşmənin öyrənilməsi belə nəticəyə gəlməyə əsas verir ki, modernləşmənin uğurlarını şərtləndirən başlıca element məhz sosial-mədəni faktordur. Bu və ya digər konkret cəmiyyətdə modernləşmənin forma və mexanizmləri mövcud cəmiyyətin sosial-iqtisadi və mənəvi tarixi yetkinlik səviyyəsindən çıxış edərək müəyyənləşdirilməlidir.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**

1.Siyasi demokratiya və siyasi modernləşmə // Monoqrafiya.Bakı, «Mütərcim», 2015, (Elmi redaktorlar; t.ü.e.d.,prof.H.C.Əlibəyli, f.ü.e.d.,prof. Ə.M.Tağıyev, rəyçi; s.e.d.,prof.E.X.Nəsirov), ISBN:978-9952-28-273-3. 356 səh.

2. Demokratik keçidə aid fikirlərin müqayisəli təhlili// Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2014, N 4(48) ISSN 2309-1347, Bakı,2014, s187-193.

3. Müasir demokratiya nəzəriyyələri// Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Hüquq İnstitutu. Elmi əsərlər: beynəlxalq elmi-nəzəri jurnal, N 2(23), ISSN 2219-9810, Bakı,2014, s.187-194.

4.Siyasi demokratikləşmənin sosial-siyasi dəyərləri// Bakı Universitetinin Xəbərləri: Sosial-siyasi elmlər seriyası. N 1. 2014, ISSN 1609-0586, Bakı, 2014, s.90-99.

5.Siyasi demokratikləşmənin məzmunu və spesifik xüsusiyyətləri// Bakı Universitetinin Xəbərləri: Sosial-siyasi elmlər seriyası. N 2. 2014, ISSN 1609-0586, Bakı,2014, s. 81-90.

6.Qloballaşmanın sosial-siyasi aspektləri// Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə və Hüquq İnstitutu. Elmi əsərlər: beynəlxalq elmi-nəzəri jurnal, N 1(24), ISSN 2219-9810, Bakı,2015, s.135-142.

7.Azərbaycanda demokratik siyasi və iqtisadi sistemin formalaşması və modernləşməsi // Gənc Alimlərin Əsərləri. N 11 2015, ISSN: 2410-2040, Bakı, 2015, s.220-226.

8.Siyasi modernləşmə siyasi proses kontekstində //Gəncə Dövlət Universiteti: Elmi Xəbərlər: Fundamental, Humanitar və Təbiət Elmlər Seriyası, N 1, 2015, Gəncə,2015, s. 235-242.

9.Azərbaycan cəmiyyətində siyasi modernləşmənin səciyyəvi xüsusiyyətləri// Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə. 2015, N 3(51) ISSN 2309-1347, Bakı,2015, s. 143-151.

10.Содержание и особенности политеческой модернизации. // Гилея: Научный вестник: выпуск 93(2), Киев,2015, с.388-393.

11.Siyasi modernləşmənin modelləri//Pedaqoji Universitet Xəbərləri: Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi. N 4. 2014. Bakı,2014, s. 214- 219.

12.Demokratik tranzit:mahiyyəti, xüsusiyyətləri və istiqamətləri// Pedaqoji Universitet Xəbərləri: Təbiət, humanitar və pedaqoji-psixoloji elmlər bölməsi. N 2. 2014. Bakı,2014, S. 243-248.

13.Siyasi demokratiyanın mahiyyəti və xüsusiyyətləri// Strateji Təhlil. (Azərbaycan Respublikasının daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərə dair analitik jurnal). say 2(9), 2014. ISSN 2078-8037. s.203-215.

14.Siyasi modernləşmə konsepsiyası siyasi inkişafın modeli kimi// Sivilizasiya. N 1, 2015, (Bakı Avrasiya Universiteti., Elmi-nəzəri jurnal). s.178-175.

15.Demokratik siyasi sistemin modernləşməsinin istiqamətləri //Geostrategiya (ictimai-siyasi,elmi-populyar jurnal). N 2(26) mart-aprel 2015, s.44-49.

16.Siyasi modernləşmə konsepsiyasının metodologiyası və mahiyyəti //Bakı Slavyan Universiteti: Elmi Əsərlər: ictimai-siyasi elmlər seriyası, N2, 2013, ISSN 2309-3277, Bakı,2013, s.55-62.

17. "The essense of a democratic poilitical system", // International Journal of Biology, Pharmacy and Allied Sciences (IJBPAS) ISSN: 2277-4998, IMPAKT FAKTOR (ISI) 2012-13:0.663, IMPAKT FAKTOR (ISI)2013-14:0.812, IJBPAS, June, 2015, 4(6): 3635-3645.(IJBPAS Now Listed in Thomsonreuters Journal Master List).

18.Политическое развитие и политическая модернизация// Тольяттинского государственного университета. Вектор Науки; Серия: Педагогика, психология. N1(20) 2015, ISSN 2221-5662. «Тольяттинского государственного университета» 2015, С.38-42.

19. Modernləşmənin mahiyyyəti və xarakterik xüsusiyyətləri// Geostrategiya (ictimai-siyasi,elmi-populyar jurnal). N 6 (24) noyabr-dekabr 2014, s.13-18.

20.Heydər Əliyev və Azərbaycanda siyasi sistemin formalaşması və modernləşməsi// Azərbaycan Universiteti, AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu, «Gənclərin Elmi Araşdırmalarına dəs-

tək» İctimai Birliyi, «Səs» media qrupu: Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92 və hakimiyyətə qayıdışının 22-ci ildönümünə həsr olunmuş - III Beynəlxalq Elmi-praktiki Konfransın Materialları. Bakı,2015. s. 128-135.

21.Siyasi münaqişələrin mahiyyəti və xüsusiyyətləri //Azərbaycan Milli Elmlər Akademiyası. Tarix İnstitutu. Elmi Əsərləri 51-ci cild. Bakı,2014. səh 91-99.

22.Azərbaycan cəmiyyətinin modernləşməsi dəyərlər kontekstində// Ümummilli lider H.Ə.Əliyevin anadan olmasının 93-cü ildönümünə və AMEA Fəlsəfə və Hüquq İnstitutunun 70 illiyinə həsr edilmiş «Hüquq elminin müasir problemləri: Azərbaycan Respublikasında İnsan huquq və azadlıqlarının müdafiəsinin yeni tendensiyaları» mövzusunda VI Respublika Elmi-Nəzəri Konfransın Materialları. Bakı, 2016, (5-6 may). səh 177-181.

23. Siyasi modernləşmə və siyasi inkişafın müqayisəli təhlili.// Geostrategiya (ictimai-siyasi,elmi-populyar jurnal). N 04(34) iyul-avqust 2016, s.42-47.

24.Siyasi modernləşmə prosesinin əsas xüsusiyyətləri// Azərbaycan Milli Elmlər Akademiyası, Fəlsəfə İnstitutu. Elmi əsərlər: beynəlxalq elmi-nəzəri jurnal, N1(26), Bakı,2016, s.217-224.

25.Siyasi sistemin inkişaf qanunauygunlugu// Azərbaycan Milli Elmlər Akademiyası. Tarix İnstitutu. Elmi Əsərləri 67-ci cild. Bakı,2017. səh -103-114.

26.Heydər Əliyev və Azərbaycanda siyasi və iqtisadi modernləşmənin inkişaf tarixi//Azərbaycan Milli Elmlər Akademiyası.Tarix İnstitutu. ElmiƏsərləri, 79-cucild, Bakı,2019,səh 221-331.

27. Социально-политические аспекты глобализации: под углом философского зрения.// EurasiaScience. Сборник статей XXXVII международной научно-практической конференции Москва: «Научно-издательский центр «Актуальность.РФ», 2021. – 304 с. ISBN 978-5-6046083-6-4 . стр 182-189.

Dissertasiyanın müdafiəsi "19" noyabr 2021-ci il tarixində saat $14^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində yaradılmış BED 2.30/1 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, M.Lermontov küç., 74

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat "18" oktyabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.10.2021
Kağızın formatı: A5
Həcm: 70878
Tiraj: 100